**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# IX ƏSRİN SONLARI – XIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN - GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ (Şəki hakimliyinin tarixinə dair materiallar əsasında)

İxtisas: 5507.01 – Beynəlxalq münasibətlər tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Şirinbəy Hacıəli oğlu Əliyev**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Humanitar və sosial elmlər fakültəsinin "Beynəlxalq münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi məsləhətçi: | AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor<br>**Yaqub Mikayıl oğlu Mahmudov** |
| Rəsmi opponentlər: | AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor<br>**İsmayıl Muxtar oğlu Hacıyev** |
| | AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru<br>**Nailə Məmmədəli qızı Vəlixanlı** |
| | tarix elmləri doktoru, professor<br>**Zeynalabdin Mədət oğlu Həsənəliyev** |
| | tarix elmləri doktoru, dosent<br>**Nigar Rövşən qızı Gözəlova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | tarix elmləri doktoru, professor<br>**Kərim Kərəm oğlu Şükürov** |
| Dissertasiya şurasının elmi katibi: | tarix elmləri doktoru, dosent<br>**İlqar Vahid oğlu Niftəliyev** |
| Elmi seminarın sədri: | AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor<br>**Musa Cəfər oğlu Qasımlı** |

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanın beynəlxalq münasibətlər tarixində IX əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətləri ön plana keçir. Xilafətin süqutu ilə Azərbaycanda başlanan siyasi dirçəliş nəticəsində cənubda Sacilər, Salarilər, Rəvvadilər kimi sülalələrin idarə etdikləri eyni adlı dövlətlər bir-birini əvəzləmiş, şimalda isə Şirvanşahlar dövləti, Şəki hakimliyi, Gəncə Şəddadilər əmirliyi yaranmış və nisbətən uzun müddət hakimiyyət sürmüşlər.

Bənzər proses bir neçə feodal dövətin yarandığı qonşu Gürcüstanda da müşahidə olunmaqda idi. Lakin X əsrin ikinci yarısında Abxaz və Kartli çarlıqlarının birləşməsi nəticəsində yaranmış vahid gürcü dövləti regional dövlətlərarası münasibətlərdə fəal rol oynamağa başlamışdır. Ona görə də IX əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycanın beynəlxalq münasibətlər tarixini tədqiq edərkən onun gürcü çarlığı ilə münasibətlərinin də araşdırılması mühüm elmi əhəmiyyət kəsb edir.

Azərbaycan-Gürcüstan münasibətləri tarixində Azərbaycanın şimal-qərb torpaqlarında yaranmış Şəki hakimliyinin gürcü feodal dövlətləri ilə münasibətləri əhəmiyyətli yer tutur. Müvafiq dövrdə Şəki hakimliyi əhalisinin böyük əksəriyyətinin xristian-monofizit olması ilə seçilirdi[1]. Bu amil Şəki hakimliyinin Gürcüstanla siyasi-iqtisadi, dini-mənəvi yaxınlığına ciddi təsir göstərmişdir. *“Kafürlərə qarşı müqəddəs müharibə”* aparan[2] digər Azərbaycan feodal dövlətlərindən fərqli olaraq, Şəki hakimliyi qonşu xristian dövlətlərlə yanaşı, bu siyasətin hədəfinə çevrilirdi. Şəki hakimliyinin Kaxeti knyazlığı və Abxaz-Kartli çarlığı ilə həmsərhəd olması da qarşılıqlı əlaqələri qaçılmaz edirdi.

Şəki hakimliyinin gürcü feodal dövlətləri ilə münasibətlərində ərazi mübahisələri, regional rəqabət, vaxtaşırı silahlı toqquşmalar,

---

[1] Ахмед ибн Лютфуллах (Мунаджим-Баши). «Джами ад-Дувал»; Ибн ал-Азрака ал-Фарики из «Истории Маяфаррикина» / Перевод А.Д.Мамедова. – Баку: Труды института истории АН Азерб. ССР, – 1957. – т. XII. – с. 219.

[2] Минорски, В.Ф. История Ширвана и Дербенда X-XI веков / В.Ф.Минорски. – Москва: Издательство Восточной литературы, – 1963. – с. 56.

alban monofizit kilsəsinin gürcü diofizit kilsəsinə qarşı dini-ideoloji mübarizəsi və s. ilə yanaşı, yadelli işğalçılara qarşı birgə mübarizə, müttəfiqlik, siyasi birləşmə, sülalələrarası nigah mühüm yer tutur. Dövlətlərarası əlaqələrin sadalanan istiqamətləri sırasında Şəki hakimliyi ilə Kaxeti knyazlığı arasında müttəfiqlik və siyasi birləşmə xüsusi mərhələni təşkil edir. Yadelli işğala qarşı səylərin birləşdirilməsindən qaynaqlanan bu siyasi birlik onların sonrakı inkişafına əsaslı təsir göstərmişdir.

Milli tarixşünaslığımızda Şəki hakimliyinin tarixi, sosial-iqtisadi inkişafı, maddi və mənəvi mədəniyyəti, etnik və dini durumu uzun müddət diqqətdən kənarda qalmışdır. XX əsrin sonlarında yenidən müstəqil dövlətçiliyi bərpa olunmuş Azərbaycanda irəli sürülmüş "İtirilmiş torpaqların tarixi" elmi istiqaməti çərçivəsində tarixi torpaqlarımızın obyektiv tarixinin araşdırılması üçün münbit şərait yaranmışdır. Mövcud boşluqdan istifadə etməyə çalışan qonşu ölkə qafqazşünasları isə bu Azərbaycan feodal dövlətinin tarixini saxtalaşdırmağa ciddi cəhdlə girişmişlər[3].

Müəyyən səbəblərdən son iki yüz ildə Gürcüstanın tərkibinə qatılmış tarixi Azərbaycan/Albaniya torpaqlarının, üstəlik iddiasında olduqları Şimal-Qərbi Azərbaycan bölgəsinin tarixinin öz mənafelərinə uyğun saxtalaşdırılması istiqamətində Gürcüstan tarixşünaslığında böyük təcrübə qazanılmış, "ixtisaslaşmış" tarixçilər nəsli yetişdirilmişdir. Onlar da Şimal-Qərbi Azərbaycan torpaqlarını qədim dövrlərdən, bəzən də erkən orta əsrlərdən gürcü çarlığı tərkibinə qatıldığını, qədim yerli tayfaların (ingiloylar) gürcülərə yaxınlığını göstərmək üçün uydurma faktlara söykənən qondarma bir mənzərə yaratmağa çalışırlar.

Son dövrlərdə Dağıstanın bəzi tarixçiləri, bu bölgənin tarixini təhrif etməyə, bu yerlərin əzəli və əbədi sahibləri olan türk-alban etnoslarının tarixən yaratdığı zəngin mədəniyyətə sahiblənməyə çalışırlar. Bu bölgədən xeyli uzaqda yerləşən erməni qafqazşünasları da aidiyyəti oldu-olmadı tarixi tədqiqatlara müdaxilə edirlər. Dissertasiya işi bölgə tarixinin, bütövlükdə Qafqaz tarixinin qəsdən

[3] Mahmudov, Y.M. İngiloylar barədə tarixi həqiqət // Şirinbəy Hacıəli. Şimal-Qərbi Azərbaycan: İngiloylar, – Bakı: Təhsil, – 2007. – s. 8.

dolaşdırılmış bir çox məsələlərinin elmi əsaslarla aydınlaşdırılması baxımından çox aktualdır.

Ümummilli lider, tariximizin Dirçəliş konsepsiyasının banisi[4] Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində vəsiyyət etmişdir: *"Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir"*[5]. "İtirilmiş torpaqların tarixi" elmi istiqamətinin müəllifi akademik Y.M.Mahmudova[6] görə, *"Vaxtilə Moskvanın himayəsinə sığınan bəzi qonşu ölkə tarixçilərinin xüsusi niyyətlə saxtalaşdırdıqları Azərbaycan tarixi yenidən araşdırılır, tarixi Azərbaycan torpaqları barədə obyektiv həqiqətlər üzə çıxarılır"*[7].

Bütövlükdə Şimal-Qərbi Azərbaycanın qədim və orta əsrlər dövrü siyasi tarixi və tarixi coğrafiyasının araşdırılması, Xilafətdən sonra İntibah dövrünə qədəm qoymuş Azərbaycanın bu bölgəsində yaranmış Şəki hakimliyinin (şahlığının) tarixinin tədqiq olunması və nəhayət qeyd olunan məsələlərlə birbaşa bağlı olan IX əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətlərində Şəki hakimliyinin yeri və rolunun aydınlaşdırılması mühüm aktuallıq kəsb edir. Qeyd olunan tarixşünaslıq problemlərinin vəhdətdə araşdırılması ayrılmaz parçası olduğu Azərbaycan tarixinin, eləcə də üzvi surətdə bağlı olduğu Qafqaz tarixinin obyektiv elmi mənzərəsinin yaranmasına xidmət etməklə yanaşı, movcud boşluqların və ən əsası çoxsaylı tarixi təhriflərin aradan qaldırılmasına da mühüm töhfə verə bilər.

Şimal-Qərbi Azərbaycan torpaqlarında yaranmış Şəki hakimliyinin tarixini tədqiq edərkən problemə orta əsr Azərbaycan-Gürcüstan dövlətlərarası münasibətləri kontekstindən yanaşılması

---

[4] Mahmudov, Y.M. İlham Əliyev və Azərbaycan tarix elmi / Y.M.Mahmudov. – Bakı: Turxan NPB, – 2014. – s. 28.

[5] Mahmudov, Y.M. Göstərilən əsəri. – s. 46.

[6] Əliyev, Ş.H. Yaqub Mahmudov – Azərbaycan tarixşünaslığında "İtirilmiş torpaqlar" istiqamətinin müəllifidir // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi əsərləri, – 2009. – 30-cu cild. – s. 98-102.

[7] Mahmudov, Y.M. İngiloylar barədə tarixi həqiqət, – s. 9.

vacibdir. Bu istər süni şəkildə uydurulmuş "tarixi ərazilərə mənsubluq" və Şəki hakimliyinin tarixini təhrif edərək ərazi iddiaları irəli sürənlərə cavab verilməsi, istərsə də obyektiv zərurətdən doğan – Şəki ilə Kaxeti arasında müttəfiqlik və siyasi birləşmə, XII əsrdə Şəki hakimliyinin süqutu və işğala məruz qalmış ərazilərin gürcü çarlığının tərkibinə qatılması və s. kimi ümdə məsələlərin araşdırılması baxımından qaçılmazdır.

Dissertasiya mövzusunu aktual edən digər bir amil müasir dövrdə Azərbaycan-Gürcüstan dövlətlərarası qarşılıqlı əlaqələrində müşahidə olunan dostluq və strateji əməkdaşlıq münasibətlərini pozmaq məqsədilə bəzi uydurma "tarixi faktların" (David Qaraceli mağara-monastr kompleksi, uydurma "tarixi gürcü Saingilo" və s.) zaman-zaman qabardılmasıdır. Dövlət və siyasi xadimlərin belə saxta faktların təsiri altında mövcud münasibətlərə xələl gətirə biləcək mövqe nümayiş etdirməmələri baxımından, Azərbaycan və gürcü xalqları arasında yaxın qonşuluq münasibətlərinin dərin köklərə bağlı olduğunu elmi cəhətdən əsaslandırıb aşkara çıxarılması tarixşünaslığımız qarşısında duran aktual problemlərdən biridir. Beləliklə, IX əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətlərində Şəki hakimliyinin yeri və rolunun araşdırılmasının aktuallığı bu problemin aidiyyəti üzrə ilkin mənbələr və elmi ədəbiyyatı əhatə etməklə hərtərəfli və dərindən tədqiq olunması zərurətini yaradır.

Tədqiqat işi IX əsrin sonları–XIII əsrin əvvəllərinədək olan dövrü əhatə edir. Xronoloji çərçivənin alt və üst hüdudlarını müəyyənləşdirərkən Azərbaycanda və regionda gedən tarixi proseslərin keyfiyyət dəyişiklikləri əsas götürülmüşdür. Albaniyanın dövlətçilik ənənələrini özündə qoruyub saxlayan Şəki hakimliyi (886-1117) 230 ilədək mövcud olmuşdur. XIII əsrin birinci yarısında monqolların, eləcə də xarəzmlilərin yürüşləri nəticəsində Qafqazın tarixində əhəmiyyətli dəyişikliklər baş verir. Şəki hakimliyinin meydana gəldiyi Şimal-Qərbi Azərbaycanın qədim və erkən orta əsrlərdə siyasi tarixi və tarixi coğrafiyası ilə bağlı bəzi məsələlərə aydınlıq gətirilməsi məqsədilə xronoloji çərçivədən müəyyən qədər kənara çıxılmışdır.

Ərazi baxımından tədqiqat işi əsasən Azərbaycanın (Albaniya)

şimal-qərb torpaqlarını əhatə edən Şəki hakimliyini (Dağıstanın bir hissəsi, Şərqi Gürcüstan daxil olmaqla) və qonşu feodal dövlətləri əhatə edir.

Azərbaycan tarixşünaslığında IX əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətləri yetərincə tədqiq olunmamışdır. Mövzu ilə bağlı mövcud elmi ədəbiyyatda yer almış materialların isə sistemləşdirilməsi və ümumiləşdirilməsi tələb olunur. Bu dövrün tarixşünaslığına dair R.A.Hüseynovun məqaləsi[8] sırf səlcuq dövrü tarixşünaslığının əsas istiqamətlərini göstərməyə xidmət edirdi. Dissertasiya mövzusu ilə bağlı tədqiqatları 1) Şəki hakimliyinin tarixinə; 2) Azərbaycan-Gürcüstan münasibətlərinin tarixinə və xarakterik xüsusiyyətlərinə; 3) Azərbaycanın (Albaniya) şimal-qərb bölgəsinin siyasi tarixi və tarixi coğrafiyasının araşdırılmasına həsr olunmuş tədqiqatlar olmaqla qruplaşdırmaq mümkündür.

1) XVIII əsr gürcü tarixçisi və coğrafiyaçısı Vaxuşti Baqrationini Şəki hakimliyinin tarixini araşdırmış ilk tədqiqatçı hesab etmək olar. Onun "Gürcü çarlığının tarixi" əsərinin üçüncü fəsli "Kaxeti və Heretinin yaranması və həyatı"[9] adlanır. Burada müəllif Hereti/Şəki ilə bağlı orta əsr gürcü mənbələr toplusu "Kartlis tsxovreba"nın məlumatlarını qısa şəkildə sistemləşdirir. Vaxuşti Baqrationi özünün ənənəvi prinsipləri və tədqiqat üsulundan istifadə edərək coğrafi təsvirin ardından tarixi prosesləri şərh edir. Hereti/Şəki ölkəsinin tarixini izləməyə çalışan müəllif, 1014-cü ildə Hereti ilə Kaxetinin birləşməsindən sonra Birləşmiş dövlətin bütün hökmdarlarını "Kaxeti hökmdarları" kimi qələmə verməyə çalışır. Vaxuşti öz konsepsiyasına uyğun olaraq tarixi faktlara məhəl qoymadan hər şeyi Kaxetinin adına çıxır, gürcüləşdirir. Beləliklə də, bügünədək davam edən "böyük tarixi təhrifin" əsası qoyulmuş, Vaxuştidən sonra bütün tədqiqatçılar onun konsepsiyasını davam etdirərək Kaxeti amilini qabartmaq, Hereti amilini isə arxa plana

---

[8] Гусейнов, Р.А. Историография истории Закавказья XI-XII вв. // Тюркологический сборник, 1976. – Москва: Наука, – 1978. – с. 26-54.

[9] Багратиони Вахушти. История царства Грузинского. Памятники грузинской исторической литературы / Перевел, снабдил предисловием, словарями и указателем Н.Т.Накашидзе. – Тбилиси: Мецниереба, – 1976. – с.125-130.

keçirmək üçün əllərindən gələni əsirgəməmişlər.

Görkəmli tədqiqatçı A.Y.Krımskinin Şəkiyə həsr etdiyi kiçik həcmli, lakin məzmunlu məqaləsi[10], elmi mübahisə doğuran bir çox məqamların olmasına baxmayaraq, gələcək tədqiqatlara işıq salmaq baxımından öz elmi dəyərini saxlamaqdadır. İlk dəfə olaraq A.Y.Krımski Şəki ilə bağlı qədim və orta əsr mənbələrindən əldə edə bildiyi məlumatları sistemləşdirmiş və təhlil etmişdir. Strabondan, Ptolemey xəritəsindən başlayaraq Sasani və Xilafət dövründə Şəki haqqında son dərəcə cüzi olan məlumatları uzlaşdırmağa çalışan, A.Y.Krımski, IX əsrin əvvəllərindən bölgənin siyasi tarixini nisbətən ardıcıl izləmişdir. Onun IX əsrin birinci yarısında Şəkidə knyazlıq etmiş Səhl ibn Sumbat və oğlu Ader-Nerse ilə bağlı, eləcə də "tənəzzül etmiş Albaniya çarlığını bərpa edən Hammamın" birincinin nəvəsi olmasına dair mülahizələri elmi dairələrdə indiyədək davam edən mübahisələrə səbəb olmuşdur. Şəki tarixi ilə bağlı davam edən mübahisələrin əksəriyyəti A.Y.Krımskinin mülahizələrinə əsaslanır.

Akademik Z.M.Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" əsərinə daxil etdiyi "Şəki və Arran hakimi Səhl ibn Sumbat haqqında" adlı[11] xüsusi paraqrafda müstəqil Şəki hakimliyinin yaranması ərəfəsində bölgədə cərəyan edən proseslərə, IX əsrin birinci yarısında Şəki hakimi Səhl ibn Sumbatın fəaliyyətinə, sonra isə tarixi ardıcıllıq gözlənilməklə mömin knyaz Xamamın "Alban padşahlığını bərpa etməsi" məsələsinə toxunulmuşdur.

Akademik N.M.Vəlixanlı və Y.M.Nəsibovun həmmüəllifi olduqları "Şəki məlikliyi" məqaləsində VII əsrin ortalarından XIII əsrin əvvəllərinədək bu bölgədə baş verən siyasi proseslər izlənilmişdir[12]. Məqalənin ən üstün cəhətlərindən biri görkəmli ərəbşünas-tədqiqatçı N.M.Vəlixanlı və orta əsr gürcü mənbələrinin

---

[10] Крымский, А.Е. Страницы из истории Северного или Кавказского Азербайджана (Классическая Албания), II, Шеки // Памяти Н.Я. Марра, – Москва-Ленинград: – Издательство Академии наук СССР, – 1938. – с. 369-384.

[11] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989. – s. 176-181.

[12] Azərbaycan tarixi. Yeddi clddə. II cild (III-XIII əsrin I rübü) / Məsul redaktor akademik N.Vəlixanlı. – Bakı: Elm, – 2007. – s. 269-275.

tədqiqatçısı Y.M.Nəsibovun ərəb və gürcü mənbələrindən müqayisəli şəkildə istifadə etməklə "Şəki məlikliyi"nin tarixinə işıq salmasıdır. İlk dəfə olaraq "Azərbaycan tarixi"nin çoxcildliyinə Şəki ilə bağlı ayrıca məqalənin daxil edilməsi onun elmi və əməli əhəmiyyətini daha da artırmışdır.

Akademik Y.M.Mahmudov "Şəki: Şimal-Qərbi Azərbaycanda sarsılmaz dövlətçilik qalası" monoqrafiyasında *"Azərbaycan Albaniya dövlətinin davamı olan Şəki əmirliyinin"*[13] 886-cı ildən fasilələrlə 1551-ci ilə qədər varlığını sürdürməsinə, ölkəni idarə etmiş sabir və qıpçaq mənşəli yerli sülalələrin gürcülərin hərbi-siyasi, etnik-dini ekspansiyasına qarşı mübarizəsinə, səlcuq yürüşləri dövründə rəsmi olaraq islam dininin qəbul olunmasına, IV Davidin işğalçılıq yürüşlərinə konseptual şəkildə yanaşılmışdır.

Akademik F.Məmmədovanın "Qafqaz Albaniyası və albanlar" monoqrafiyası akademik dairələrdə birmənalı qarşılanmamışdır. "IX-XII əsrlərdə Alban çarlıqlarının dirçəlişi"nə həsr etdiyi[14] III fəslinin beşinci paraqrafında müəllif 886-cı ildə mömin knyaz Hammamın Alban çarlığını qismən bərpa etdiyini və öz hakimiyyətini solsahildə Kambiçan-Şakiyə, sağsahildə isə Arsax-Xaçenə yaydığını, oğlu II Artnersehin isə 910-cu ildə Kambeçani-Eretidə özünü çar elan etdiyini qeyd edirdi. Ardınca da gürcü mənbəsinə əsasən bu dəfə Şəki çarı adlandırdığı II Artnersehin gürcülərə qarşı mübarizəsindən və oğlu İşxanikin hökmdarı olduğu Kambeçani-Eretidə doqmatik mübahisələr və gürcüləşdirmə prosesinə nəzər salır. F.Məmmədova "Kambeçani-Şaki-Ereti" məsələsini özü üçün müəyyənləşdirə bilmədiyindən tamamilə məsələləri dolaşdırır.

T.Q.Papuaşvilinin Hereti tarixinə dair monoqrafiyasında[15],

---

[13] Mahmudov, Y.M. Şəki: Şimal-Qərbi Azərbaycanda sarsılmaz dövlətçilik qalası / Y.M.Mahmudov. – Bakı: Turxan NPB, – 2020. – s. 9-11.

[14] Мамедова, Ф. Кавказская Албания и албаны / Ф.Мамедова – Баку: Центр Исследований Кавказской Албании, – 2005. – s. 391-405.

[15] პაპუაშვილი, თ. ჰერეთის ისტორიის საკითხები: ნარკვევები სოციალურ-ეკონომიური და პოლიტიკური ისტორიიდან. უძველესი დროიდან XII ს. I მეოთხედამდე / თ.პაპუაშვილი. – თბილისი: მეცნიერება, – 1970. – 391 გვ. (Papuaşvili, T. Ereti tarixinin məsələləri: Sosial-iqtisadi və tarixi oçerkləri. Qədim

doktorluq dissertasiyasında[16] qədim dövrlərdən XII əsrin birinci rübünədək sosial-iqtisadi və siyasi tarixə nəzər salınır, eyni məzmunlu “ranlar və kaxlar çarlığına” həsr etdiyi digər monoqrafiyası[17] isə VIII-XI əsrləri əhatə edir. Öz araşdırmalarında Hereti və Albaniyanın tarixi coğrafiyasına və etnik tərkibinə diqqət ayıran, T.Q.Papuaşvili, qədim dövrlərdən VII əsrədək Hereti tarixinin əsas mərhələlərini, ayrıca VIII-XII əsrləri, eləcə də antik və IV-XII əsrlərdə sosial-iqtisadi inkişaf məsələlərini, şəhərlər və ticarəti, bir sözlə, Şəki/Heretinin bütün tarixini monoqrafik tədqiq etməyə cəhd etmişdir. Azərbaycan tarixşünaslığında orta əsr tədqiqatçıları tərəfindən T.Q.Papuaşvilinin tədqiqatları, onun kobud şəkildə tarixi təhrif edərək görmək istədiyi tarixi yaratmaq cəhdləri ciddi elmi tənqidə məruz qalmışdır.

Azərbaycanın IX-XI əsrlər tarixinin tədqiqatçısı M.X.Şərifli Azərbaycan feodal dövlətlərinin yaranması və inkişafı mərhələlərini sistemli şəkildə araşdırmış, lakin müvafiq dövrdə yaranmış Şəki hakimliyini tədqiqatlarına daxil etməmiş, *“hətta onun tarixi ətraflı surətdə tədqiq edilməmişdir”*[18] deyə etiraf etmişdir. Bununla belə, görkəmli tədqiqatçı fundamental əsərinə Şəki hakimliyi ilə bağlı bəzi epizodik məlumatları daxil etməklə onun varlığını da inkar etməmiş[19], lakin buna rəğmən, Şəkini eyni zamanda *“Şirvanın mühüm nahiyə və şəhərlərindən biri”* hesab etmişdir[20].

Gürcüstan tarixşünaslığında müxtəlif dövrlərdə “Saingilo” adı altında tarixi-coğrafi və tarixi-etnoqrafik səpkili bır sıra

---

dövrlərdən XII əsrin I rübünədək / T.Papuaşvili. – Tbilisi: Metsniereba, – 1970. – 391 s.).

[16] Папуашвили, Т.Г. Вопросы истории Эрети. Очерки по социально-экономической и политической истории (с древнейщих времен до первой четверти XII в.): / Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. / – Тбилиси, – 1971. – 65 с.

[17] პაპუაშვილი, თ. რანთა და კახთა სამეფო (VIII-XI სს.) / თ.პაპუაშვილი. – თბილისი: მეცნიერება, – 1982. – 291 გვ. (Papuaşvili, T. Ranlar və kaxlar çarlığı (VIII-XI əsrlər) / T.Papuaşvili. – Tbilisi: Metsniereba, – 1982. – 291 s.).

[18] Şərifli, M.X. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dovlətləri / M.X.Şərifli. – Bakı: Elm, – 1978. – s. 295.

[19] Şərifli, M.X. Göstərilən əsəri, – s. 70, 71, 167, 197, 212, 213.

[20] Yenə orada, – s. 295.

monoqrafiyalar nəşr olunmuşdur[21]. Yalnız müasir gürcü tarixşünaslığına məxsus olan "Saingilo" ("İngiloyistan") coğrafi məfhumu müasir dövrdə Azərbaycan Respublikasının Balakən, Zaqatala və Qax rayonlarının ərazisini əhatə edir. Mənşəcə Qax ingiloyu olan görkəmli tədqiqatçı M.Q.Canaşvili 1910-cu ildə gürcü dilində ilk "Saingilo" kitabını nəşr etdirmişdir[22]. Gürcüstan sovet tarixşünaslığında 1947-ci ildə Z.Edili[23], 1953-cü ildə M.Dumbadze[24], 1960-cı ildə G.Qamxaraşvili[25], 1970-ci ildə *G.Çanqaşvili*[26], 1979-cu ildə İ.Adamianın[27], nəhayət, 2013-cü ildə T.Q.Papuaşvilinin[28] eyni adlı monoqrafiyaları çap olunmuşdur.

---

[21] Əliyev, Ş.H. İngiloylar (tarixi-etnoqrafik tədqiqat): / Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. / – Bakı, – 2001. – s. 9.

[22] ჯანაშვილი, მ.გ. საინგილო / მ.გ.ჯანაშვილი. – ტფილისი: ს.მ.ლოსაბერიძის სტ, – 1910. – 231 გვ. (Canaşvili, M.Q. Saingilo / M.Q.Canaşvili. – Tiflis: S.M.Losaberidze st, – 1910. – 231 s.).

[23] ედილი, ზ.საინგილო / ზ.ედილი. – თბილისი: საბჭოთა მწერალი, – 1947. – 181 გვ. (Edili, Z. Saingilo / Z.Edili. – Tbilisi: Sabçota mtserali, – 1947. – 181 s.).

[24] დუმბაძე, მ. აღმოსავლეთ კახეთის (საინგილოს) ისტორიიდან (XIX ს. რეფორმამდელი პერიოდი) / მ.დუმბაძე. – თბილისი: საქ-ოს სსრ მეცნ. აკადემია, – 1953. – 282 გვ. (Dumbadze, M. Şərqi Kaxeti (Saingilo) tarixindən (XIX əsr islahatlara qədərki dövr) / M.Dumbadze. – Tbilisi: Gürcüstan SSR Elmlər Akademiyası, – 1953. – 282 s.).

[25] გამხარაშვილი, გ. საინგილო: (მოკლე მიმოხილვა) / გ.გამხარაშვილი. – თბილისი: საბჭ. საქართველო, – 1960. – 30 გვ. (Qamxaraşvili, G. Saingilo: (qısa baxış) / G.Qamxaraşvili. – Tbilisi: Sabçota Sakartvelo, – 1960. – 30 s.).

[26] ჩანგაშვილი, გ. საინგილო (გეოგრაფიულ-ისტორიული ნარკვევი) / გ.ჩანგაშვილი. – თბილისი: მეცნიერება, – 1970. – 65 გვ. (Çanqaşvili, G. Saingilo (tarixi-coğrafi oçerk) / G.Çanqaşvili. – Tbilisi: Metsniereba, – 1970. – 65 s.).

[27] ადამია, ი. ქართული ხალხური ხუროთმოძღვრება, წგნ. 3 (საინგილო) / ი.ადამია. – თბილისი: ხელოვნება, – 1979. – 259 გვ. (Adamia, İ. Gürcü xalq memarlığı, c. 3 (Saingilo) / İ.Adamia. – Tbilisi: Xelovneba, – 1979. – 259 s.).

[28] პაპუაშვილი, თ. საინგილოს ისტორიის ნარკვევები: საქართველოს აღდგომისა და გამოხსნისათვის ბრძოლა კაკ-ელისენის გამო / თ.პაპუაშვილი. – თბილისი: არტანუჯი, – 2013. – 308 გვ. (Papuaşvili, T. Saingilo tarixinə dair oçerklər: Qax-Eliseni uğrunda Gürcüstanın diriliş və qurtuluş mübarizəsi / T.Papuaşvili. – Tbilisi: Artanuji, – 2013. – 308 s.).

Ciddi tarixi təhriflərə yol verilmiş, yerlərdən toplanmış müəyyən etnoqrafik materiallara subyektiv yanaşmadan irəli gələn və heç bir elmi əsası olmayan mülahizələrə geniş yer verilmiş bu əsərlərdə məqsəd bölgə tarixinin saxtalaşdırılması, uydurma "İngiloy məsələsinin" unudulmaması ilə yanaşı, Şimal-Qərbi Azərbaycan ərazilərinə ərazi iddiaları üçün zəmin hazırlamaq olmuşdur.

2) Azərbaycan və Gürcüstan qarşılıqlı münasibətlərinin araşdırılması sahəsində mövcud tədqiqatların əksəriyyəti XII əsrdə Şirvan dövlətinin gürcü çarlığına tabe və ya vassal asılılığında olması haqqında elmi mübahisələrə həsr olunmuşdur. Şirvan-Gürcüstan qarşılıqlı əlaqələrinin ilk araşdırıcılarından hesab olunan Y.A.Paxomovun bir sira əsərlərində Şirvanın Gürcüstanın vassal asılılığında olduğu iddia olunur[29]. Akademik V.V.Bartold Şirvan dövlətinin gürcü çarlığının vassal asılılığında olduğunu[30], lakin Şirvanşahların sikkələrində yalnız İrak səlcuq sultanlarından asılılığın təsbit olunduğunu qeyd edirdi[31]. V.F.Minorski *"1223-cü ilədək yüz il ərzində Şirvanın gürcü təsirinə məruz qaldığını"* yazırdı[32]. M.A.Seyfəddini və A.M.Mirabdullayev isə numizmatik materiallara əsaslanaraq yazırdılar: *"Şirvanşah III Mənucöhr gürcü çarlarından asılı deyildi, öz dövlətini qorumaq üçün yalnız onlar və*

---

[29] Пахомов, Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа: [8 выпусков] / Е.А.Пахомов. – Баку: Издательство Академии наук Азербайджанской ССР, – Выпуск VII. – 1957. – с. 33; Пахомов, Е.А. Краткий курс истории Азербайджана. С приложением экскурса по истории ширваншахов XI-XIV вв. (На правах рукописи) / Е.А.Пахомов. – Баку: 1-ое тип. Труд. Т-ва, – 1923. – с. 32, 33, 36, 37, 45, 47; Пахомов, Е.А. Пайтакаран-Байлакан-Орен-кала. Труды Азербайджанской (Оренкалинской) экспедиции, том 1, 1953-1955 г. // [175 выпусков] – Москва-Ленинград: МИА СССР, № 67, – Изд-во АН СССР, – 1959. – с. 26.

[30] Бартольд, В.В. Место прикаспийских областей в истории мусульманского мира // Сочинения: [в 9 томах] / В.В.Бартольд. – Москва: Наука, – т. II, ч. I, – 1963. – с. 692.

[31] Бартольд, В.В. Ширваншах. Статьи из «Энциклопедии ислама» // Сочинения: [в 9 томах] / В.В.Бартольд. – Москва: Наука, – т. II, ч. I, – 1963. – с. 877.

[32] Минорски, В.Ф. История Ширвана и Дербенда X-XI веков / В.Ф.Минорски. – Москва: Издательство Восточной литературы, – 1963. – с. 180.

*səlcuqlu sultanları arasında manevr edirdi”*[33].

Şirvan-Gürcüstan münasibətlərinə həsr etdiyi məqaləsində[34], eləcə də V.F.Minorskinin “Şirvan və Dərbənd tarixi”nə məsul redaktor kimi yazdığı rəyində[35] A.A.Əlizadə, Şirvanın gürcü təsirinə məruz qalması, gürcü çarlarının öz titullarına “şarvanşa” titulunu əlavə etməsi məsələsinə kəskin etiraz edir, bunun ərəb və fars mənbələri tərəfindən təsdiq olunmadığını qeyd edirdi. Akademik Z.M.Bünyadovun “XII əsrin birinci yarısında Şirvan və Gürcüstan” məqaləsində[36], yenə onun redaktəsi ilə nəşr olunmuş “Azərbaycan tarixi”nin Şirvan-Gürcüstan münasibətlərinə həsr olunmuş IX fəslində[37] Şirvanşahların Abxaz-Kartli çarlığı ilə münasibətlərinə aydınlıq gətirilmişdir. Şirvanşahların Gürcüstanla münasibətlərinə qismən toxunmuş S.Aşurbəylinin isə gürcülərlə bağlamaq istədiyi faktların[38] heç birinin Şirvanşahların gürcü çarlığı ilə münasibətlərinə dəxli olmadığı müəyyən edilmişdir. R.A.Hüseynov və S.S.Əliyarovun XII əsrdə Azərbaycan və Gürcüstanın müttəfiq

---

[33] Сейфеддини, М.А. Денежное обрашение и монетное дело Азербайджана IX-XIV веков (при феодальном государстве Ширваншахов и Ильдегизидов) (по данным нумизматики) / М.А.Сейфеддини, А.М.Мирабдуллаев. – Баку: Nafta-Press, – 2004. – с. 52.

[34] Али-заде, А.А. К вопросу об освещении ширвано-грузинских отношений в XI-XII веках (статья первая) // – Баку: Известия АН Азербайджана. Серия истории, философии и права (СИФП), – 1977. № 4, – с. 73-85.

[35] Али-заде, А.А. От ответственного редактора. В книге: В.Ф.Минорский История Ширвана и Дербенда X-XI веков // – Минорски, В.Ф. История Ширвана и Дербенда X-XI веков, – Москва: Издательство Восточной литературы, – 1963. – с. 8-12.

[36] Буниятов, З.М. Грузия и Ширван в первой половине XII века // – თბილისი: საქართველო რუსთაველის ხანაში: რუსთაველის დაბადების 800 წლისთავისადმი მიძღვნილი კრებული. – 1966. – გვ. 281-292. (Tbilisi: Rustaveli dövründə Gürcüstan: Rustavelinin anadan olmasının 800 illiyinə həsr olunmuş toplu. – 1966. – s. 281-292).

[37] Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Ali məktəblər üçün dərslik. / Red. heyəti. Z.M.Bünyadov, T.Ə.Bünyadov, Ə.Q.Səfərli və b.; Müəllif. Y.B.Yusibov və b. I cild. – Bakı: – Azərnəşr, – 1994. – s. 294-299.

[38] Ашурбейли, С. Государство Ширваншахов / С.Ашурбейли. – Баку: Элм, – 1983. – с. 116-117; Ашурбейли, С. История города Баку / С.Ашурбейли. – Баку: Азернешр, – 1992. – с. 89.

münasibətləri tarixinə dair məqalə[39] Şirvanın gürcü çarlığı ilə münasibətlərinin xarakterik xüsusiyyətlərinə həsr olunsa da, sərlövhədə düzgün olaraq, Azərbaycan və Gürcüstanın müttəfiqlik münasibətləri qabardılmışdır.

Ümumiyyətlə, orta əsr Azərbaycan-Gürcüstan qarşılıqlı münasibətləri kompleks şəkildə araşdırılmamış, Şirvanşahlar dövləti istisna olmaqla, digər Azərbaycan feodal dövlətlərinin Gürcüstanla əlaqələri xüsusi tədqiqat obyektinə çevrilməmişdir. Orta əsr Azərbaycan-Gürcüstan qarşılıqlı münasibətlərinin kompleks şəkildə araşdırılması istiqamətində ilk cəhd kimi "IX əsrin ikinci yarısı–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətləri"[40] mövzusunda Azərbaycan diplomatiyası tarixi kursu üzrə metodik vəsait qeyd oluna bilər. Azərbaycan feodal dövlətlərinin ayrı-ayrılıqda gürcü feodal dövlətləri ilə qarşılıqlı münasibətlərinin müəyyən aspektləri bu və ya digər dərəcədə müxtəlif səpkili tədqiqatlara daxil edilmişdir. M.X.Şəriflinin əsərində Gəncə Şəddadilər əmirliyinin gürcü çarlığı ilə münasibətlərinə xüsusi yer verilmişdir[41]. Rəşad Mustafanın "Tiflis əmirliyi" monoqrafiyasında Azərbaycan-Gürcüstan qarşılıqlı münasibətlərində Tiflis əmirliyinin yeri və roluna da aydınlıq gətirilmişdir[42]. R.A.Hüseynzadə tədqiqatlarında XII əsrdə Azərbaycan və Gürcüstan qarşılıqlı münasibətlərinin xarakterinə aydınlıq gətirməyə[43], Gürcüstan-Şirvan qarşılıqlı əlaqələrinin səciyyəvi xüsusiyyətlərini göstərməyə çalışır, Azərbaycan Atabəylər dövlətinin Gürcüstanla əlaqələrini ümumi

---

39 Гусейнов, Р.А. Из истории союзных отношений Азербайджана и Грузии в XII в. / Р.А.Гусейнов, С.С.Алияров // Elmi əsərlər: tarix və fəlsəfə seriyası, – Bakı: – 1977. № 4, – s. 23 - 31.

40 Əliyev, Ş.H. IX əsrin ikinci yarısı–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətləri. "Azərbaycan diplomatiyası tarixi" kursu üzrə metodik vəsait / Ş.H.Əliyev – Bakı: Kitab aləmi, – 2007. – 48 s.

41 Şərifli, M.X. IX əsrin ikinci yarısı–XI əsrlərdə Azərbaycan feodal dovlətləri / M.X.Şərifli. – Bakı: Elm, – 1978. – s. 197-199, 211-212, 220-222.

42 Mustafa, R.Ə. Tiflis əmirliyi / Ə.R.Mustafa. - Bakı: Turan NPB, – 2019. – 412 s.

43 Гусейн-заде, Р.А. Кавказ и сельджуки / Р.А.Гусейн-заде. – Баку: Кавказ, – 2010. – с. 108-124; Yenə onun: Сельджукская эпоха истории Кавказа / Р.А.Гусейн-заде. – Москва: Kremlin Multimedia, – 2013. – с. 96-103.

kontekstdən təqdim edir[44].

Akademik Z.M.Bünyadovun tədqiqatlarında atabəylərin[45], eləcə də şirvanşahların[46] gürcülərlə münasibətlərinə geniş yer verilmiş, XII əsrin ikinci yarısı–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətlərinə aydınlıq gətirilmiş, sultan Cəlaləddinin Azərbaycana yürüşləri dövründə[47], gürcülərlə bağlı məsələlərə toxunulmuşdur.

3) Azərbaycanın (Albaniya) şimal-qərb bölgəsinin siyasi tarixi və tarixi coğrafiyasının araşdırılmasına bu və ya digər dərəcədə həsr olunmuş tədqiqatlar barədə dissertasiyanın birinci fəslin birinci paraqrafında ətraflı bəhs olunur. Burada əsasən Şimal-Qərbi Azərbaycan (Albaniya) torpaqlarının Dəryal keçidinədək uzandığını təsdiq edən Antik dövr mənbələrini şərh edən müasir tədqiqatçıların: Z.M.Bünyadov[48], F.C.Məmmədova[49], Q.Ə.Qeybullayev[50], V.Z.Piriyev[51], A.Yanovski[52], S.T.Yeremyan[53], K.V.Trever[54],

---

[44] Гусейн-заде, Р.А. Коллизии на Кавказе: исторические очерки / Р.А.Гусейн-заде. – Баку: б. и., 2013. – с. 96-107.

[45] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər) / Z.M.Bünyadov. – Bakı: Şərq-Qərb, – 2007. – s. 58-66, 106-110, 116-118.

[46] Yenə orada, – s. 163-166, 173-178.

[47] Буниятов, З.М. Государство Хорезмшахов - Ануштегинидов (1097-1231) / З.М.Буниятов. – Москва: Наука, – 1986. – с. 166-169.

[48] Буниятов, З.М. Новые данные о местонахождении крепости Шаки // – Баку: ДАН Азерб. ССР, – 1959. – т. XV. № 9, – с. 869-872.

[49] Məmmədova, F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası / F.C.Məmmədova. – Bakı: Azərnəşr, – 1993. – s. 126-127, 134, 136-137.

[50] Гейбуллаев, Г.А. К этногенезу азербайджанцев, т. 1 / Г.А.Гейбуллаев. – Баку: Элм, – 1991. – с. 34, 152-153.

[51] Piriyev, V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası / V.Z.Piriyev. – Bakı: Müəllim, – 2006. – 148 s.

[52] Яновский, А. О древней Кавказской Албании // – Санктпетербург: Журнал министерства народного просвещения (ЖМНП), – 1846. ч. 52, – № 10-12, – с. 97-136.

[53] Еремян, С.Т. Раннефеодальные государства Закавказья в III-VII вв. // – Очерки истории СССР (III-IX вв): [в 9 томах]. Под ред. Н.Дружинина. – Москва: Академия наук СССР, – т. 2, – 1958. – с. 303.

[54] Тревер, К.В. Очерки по истории и культуре Кавказской Албании IV в. до н. э. - III в / К.В.Тревер. – Москва-Ленинград: Издательство АН СССР, – 1959. – 391 с.

M.Brosse, N.Boqomolov[55], B.A.Dorn[56], A.A.Tuallaqov[57], İ.Adamia[58], T.Q.Papuaşvili[59] və b. əsərləri təhlil olunmuşdur. Obyektivliyi ilə seçilən orta əsr gürcü mənbələrində Şəki/Hereti ölkəsi, hüdudları və sakinləri barədə məlumatları tədqiq etmiş F.C.Məmmədova[60], Q.Ə.Qeybullayev[61], V.Baqrationi[62], Y.S.Takayşvili[63], K.S.Kekelidze[64], B.S.Esadze[65],

---

[55] Дубровин, Н.Ф. История войны и владычества русских на Кавказе: т. 1. - Очерк Кавказа и народов, его населяющих, Кн. 3. – Библиографический указатель источников к первым двум книгам: [т. 1-6] / Н.Ф.Дубровин. – Санкт-Петербург: Типография Департамента уделов, т. I, кн. III. – 1871. – с. 4; Богомолов Н. Албанские ворота // – Кавказ. Газета политическая и литературная. – 1850. 8 феврал, №11. – с. 42-43.

[56] Дорн, Б.А. Каспий: о походах древних русских в Табаристан, с дополнительными сведениями о других набегах их на прибрежья Каспийского моря / Б.А.Дорн. – Санктпетербург: Типография Академии наук, – 1875. – с. 336.

[57] Туаллагов, А.А. Дарьял – "ворота алан" // – Владикавказ: Известия СОИГСИ, – 2018. – Выпуск 27, – с. 15-30.

[58] ადამია, ი. ქართული ხალხური ხუროთმოძღვრება, წგნ. 3 (საინგილო), – გვ. 167. (Adamia, İ. Gürcü xalq memarlığı, c. 3 (Saingilo), – s. 167).

[59] Папуашвили, Т.Г. Вопросы истории Эрети, – с. 7.

[60] Məmmədova, F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası, – s. 123-124.

[61] Гейбуллаев, Г.А. К этногенезу азербайджанцев, – с. 160, 163, 170.

[62] Царевич Вахушти. География Грузии / Введение, перевод и примечания М.Г.Джанашвили. – Тифлис: Записки КОИРГО, – кн. XXIV, – вып. 5, – 1904. – с. 100-129.

[63] Такайшвили, Е.С. Источники грузинских летописей. Обращение Грузии / Перевод с древнегрузинского Е.С.Такайшвили. – Тифлис: СМОМПК [в 46 томах], – вып. XXVIII, – 1900. – с. 8.

[64] კეკელიძე, კ.ს. ეტიუდები ძველი ქართული ლიტერატურის ისტორიიდან: [14 ტომად] / კ.ს.კეკელიძე. – თბილისი: სახელმწ. უნივ., – ტ. II. – 1945. – გვ. 315-316. (Kekelidze K.S. Qədim gürcü ədəbiyyatı tarixinə dair etüdlər: [14 cilddə] / K.S.Kekelidze. – Tbilisi: Dövlət Universiteti, – c. II, – 1945. – s. 315-316).

[65] Эсадзе, Б.С. Летопись Грузии. Юбилейный сборник к 300-летию Царствования Дома Романовых Державных Покровителей грузинского народа. 1613-1913 / Б.С.Эсадзе. – Тифлис: Издание кн. П.И.Туманова, – 1913. – Вып. 1 [и единств.], – с. 25.

N.A.Berdzenişvili[66], Q.V.Tsulaya[67], M.Q.Canaşvili[68], Q.A.Melikişvili[69], T.Q.Papuaşvili[70], Q.Çanqaşvili[71], D.L.Musxelişvili[72], Q.Qriqoliya[73] və b. əsərləri təhlil süzgəcindən keçirilmişdir.

Orta əsr erməni mənbələrində Şimal-Qərbi Albaniya vilayətləri ilə bağlı məlumatları təhlil etmiş S.T.Yeremyan[74], D.L.Musxelişvili[75], Q.Ə.Qeybullayev[76], F.C.Məmmədova[77] və b. əsərləri nəzərdən keçirilmişdir. Orta əsr ərəb mənbələrində Filan şahlığı və Şəki haqqında məlumatları araşdırmış V.F.Minorski[78], Z.M.Bünyadov[79], N.M.Vəlixanlı[80], N.A.Karaulova[81],

---

66 *ბერძენიშვილი, ნ.* საქართველოს ისტორიის საკითხები / ნ. ბერძენიშვილი. - *თბილისი: მეცნიერება*, – 1975. – წიგნი VIII – გვ. 623. (Berdzenişvili N. Gürcüstanın tarixi məsələləri / N.Berdzenişvili. – Tbilisi: Metsniereba, – 1975. – VIII cild, – s. 623.

67 Мровели Леонти. Жизнь Картлийских царей / Перевод с древнегрузинского, предисловие и комментарии Г.В.Цулая. – Москва: Наука, – 1979. – с. 42.

68 Царевич Вахушти. География Грузии, – с. 131.

69 Меликишвили Г.А. К истории древней Грузии / Г.А.Меликишвили. – Тбилиси: Изд-во Акад. наук Груз. ССР, – 1959. – с. 123, 125, 297.

70 პაპუაშვილი, თ. ჰერეთის ისტორიის საკითხები, – გვ. 68, 70. (Papuaşvili, T. Ereti tarixinin məsələləri, – s. 68, 70); პაპუაშვილი, თ. რანთა და კახთა სამეფო (VIII-XI სს.), – გვ. 287. (Papuaşvili, T. Ranlar və kaxlar çarlığı (VIII-XI əsrlər), – s. 287).

71 ჩანგაშვილი, გ. საინგილო (გეოგრაფიულ - ისტორიული ნარკვევი), – გვ. 26. (Çanqaşvili, G. Saingilo (tarixi-coğrafi oçerk), – s. 26).

72 Мусхелишвили, Д.Л. Из исторической географии Восточной Грузии: Шаки и Гогарена / Д.Л.Мусхелишвили. – Тбилиси: Мецниереба, – 1982. – с. 16-17.

73 Григолия, К. О чем поведала “Картлис цховреба” / К.Григолия. – Тбилиси, Ганатлеба, – 1973. – с. 19-20.

74 Еремян, С.Т. Страна “Махелония” надписи Кааба и Зардушт // – Москва: ВДИ, – 1967. № 4, - с. 47 - 59.

75 Мусхелишвили, Д.Л. Göstərilən əsəri, – s. 16-18.

76 Гейбуллаев, Г.А., Göstərilən əsəri, – s. 156-157.

77 Məmmədova, F.C. Göstərilən əsəri, – s. 141.

78 Минорски, В.Ф. История Ширвана и Дербенда X-XI веков, – с. 137-138.

79 Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə, – s. 40.

80 Vəlixanlı, N.M. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər / N.M.Vəlixanlı. – Bakı, Elm və təhsil, – 2016. – s. 195-198, 221-227, 272-273.

S.A.Kovalevski[82], M.İ.Artamonov[83], Y.A.Paxomov[84], A.R.Şixsaidov[85] və b. əsərlərlərinə müraciət olunmuşdur.

D.L.Musxelişvili "Şərqi Gürcüstanın tarixi coğrafiyasından: Şəki və Qoqarena" əsərində[86], faktiki olaraq, Şimal-Qərbi Azərbaycan bölgəsinin tarixi coğrafiyası məsələlərini araşdırmağa çalışmışdır. "Şəkini Şərqi Gürcüstan" kimi təqdim etməyə çalışan müəllifin əsl niyyəti elə əsərin adından bəlli olur. D.L.Musxelişvilinin Azərbaycanın (Albaniya) tarixi şimal-qərb vilayətləri Şəki və Kambisenanı, eləcə də cənub-qərb vilayətləri Girdıman və Sakasenanı "əzəli gürcü torpaqları" kimi təqdim etmək cəhdləri F.C.Məmmədova tərəfindən hərtərəfli ifşa olunmuşdur[87].

S.Ə.Süleymanova da Azərbaycanın (Albaniyanın) şimal-qərb bölgəsinin etno-siyasi tarixinə dair bir neçə məqalə həsr etmişdir. "Şimal-Qərbi Azərbaycan tarixi" monoqrafiyasının həmmüəlliflərindən biri kimi Şimal-Qərbi Albaniyanın tarixi coğrafiyasına və etnosiyasi tarixinə nəzər salmış[88], yerli qaynaqların

---

81 Сведения арабских писателей о Кавказе, Армении и Адербейджане: I, ал-Истахрий / Перевод и примечания Н.А.Караулова. – Тифлис: СМОМПК [в 46 томах], – вып. XXIX, – 1901. – с. 15-16, 66; II, Ибн ал-Факих / – вып. XXXI, – 1902. – с. 11, 15, 41; III, Ибн Хордадбех; IV, Кудама; V, Ибн Рустэ; VI, ал-Якуби / – вып. 32, – 1903. – с. 15-17; VII, ал-Мукаддасий; VIII, Масуди; IX, Ибн Хаукал / – вып. 38, – 1908. – с. 52, 53.

82 Ковалевски, С.А. "Книга Птолемея" в свое исторической географии прикаспия / – Ленинград: Известия Всесоюзного географического общества, – 1953. № 1, – s. 33.

83 Артамонов, М.И. История хазар. Под редакцией и с примечаниями Л.Н. Гумилёва / М.И.Артамонов. – Ленинград: Издательство Государственного Эрмитажа, – 1962. – с. 227.

84 Пахомов, Е.А. Закатальская "Длинная стена" / – Баку: Труды Азербайджанского университета, серия историческая, – 1950. вып. I, – с. 68-90

85 Шихсаидов, А.Р. К вопросу о локализации Филана // – Махачкала, Ономастика Кавказа, – 1976. – с. 79-81.

86 Мусхелишвили, Д.Л. Из исторической географии Восточной Грузии: Шаки и Гогарена / Д.Л.Мусхелишвили. – Тбилиси: Мецниереба, – 1982. – 101 с.

87 Мамедова, Ф. Политическая история и историческая география Кавказской Албании (III в до н.э.-VIII в н.э.) / Ф.Мамедова. – Баку, Элм, – 1986. – с.127-143.

88 Şimal-Qərbi Azərbaycan tarixi / Layihənin rəhbəri və ön sözün müəllifi Y.M.Mahmudov, Müəlliflər: Ş.Əliyev, S.Əliyeva, S.Süleymanova [və b.]. – Bakı, Şərq-Qərb, – 2011. – s. 16-41.

arxetipləri işığında Şimal-Qərbi Albaniyanın etnosiyasi tarixi[89], eləcə də Albaniyanın şimal-qərb sərhəd bölgəsi Lpiniya ilə bağlı əhəmiyyətli araşdırmalar aparmışdır[90].

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti IX əsrin sonları–XIII əsrin əvvəllərində Şəki hakimliyinin tarixinə dair materiallar əsasında Azərbaycan-Gürcüstan münasibətlərində Şəki hakimliyinin yeri və rolunun araşdırılmasıdır. Tədqiqatın predmetini müvafiq dövrdə Azərbaycan-Gürcüstan münasibətlərinin səciyyəvi xüsusiyyətləri, Azərbaycanın şimal-qərb bölgəsində yaranmış Şəki hakimliyinin tarixi və qonşularla əlaqələri, eləcə də Şimal-Qərbi Azərbaycanın qədim və orta əsrlər dövrü tarixi coğrafiyasının araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi IX əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətlərində Şəki hakimliyinin yeri və rolunun aydınlaşdırılması, Azərbaycan-Gürcüstan münasibətlərinin xarakterik xüsusiyyətlərinin əsaslandırılması, bu problem ilə birbaşa bağlı olan məsələlərin – Şəki hakimliyinin tarixinin tədqiq olunması və bütövlükdə Şimal-Qərbi Azərbaycanın qədim və orta əsrlər dövrü siyasi tarixi və tarixi coğrafiyasının araşdırılmasıdır.

Tədqiqat zamanı qarşıya qoyulan məqsəddən irəli gələrək, geniş çeşidli mənbələr və xüsusi ədəbiyyat materiallarına əsaslanaraq aşağıdakı konkret vəzifələr yerinə yetirilmişdir:

✓ “İtirilmiş torpaqların tarixi” elmi istiqaməti çərçivəsində Azərbaycanın şimal-qərb istiqamətində tarixi torpaqlarımızın obyektiv tarixinin araşdırılması. IX əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətlərində Şəki hakimliyinin yeri və rolu, eləcə də Şəki hakimliyinin tarixinin

---

89 Сулейманова, С.А. Этнополитическая история северо-западной Албании в свете архетипов в местных источниках // – Баку: Известия НАНА (история, философия и право), – 2004. № 4, – с. 52-82.

90 Süleymanova, S.Ə. Albaniyanın şimal-qərb sərhəd bölgəsi Lpiniya-Ereti // - Bakı: AMEA Tarix İnstitutunun Elmi əsərləri, – 2007. – 20-ci cild, – s. 56-75. Yenə onun: “Каспийские ворота” в албанской области Лпиния. // Материалы Международной конференции “Дорога Страбона как часть Великого Шелкового пути”. МИЦАИ под эгидой ЮНЕСКО. – Баку, – 2008. – с. 127-132.

tədqiqi sahəsində milli tarixşünaslığımızda mövcud olan boşluqların aradan qaldırılması. Bilərəkdən son iki yüz ildə qafqazşünaslıqda süni şəkildə yaradılmış mürəkkəb elmi problemə aydınlıq gətirilməsi və bəzi xarici ölkə tədqiqatçılarının Azərbaycan tarixini saxtalaşdırmaq cəhdlərinin ifşa olunması;

✓ Antik dövr yunan, Roma, orta əsr alban, ərəb, erməni, gürcü mənbələrindən Şimal-Qərbi Azərbaycanın tarixi coğrafiyasına dair məlumatların təhlili və düzgün, obyektiv elmi nəticələrin əldə edilməsi;

✓ Qədim dövrlərdən IX əsrin ortalarınadək Azərbaycanın (Albaniya) siyasi tarixi kontekstində şimal-qərb vilayətləri ilə bağlı proseslərin ümumi mənzərəsini yaratmaq;

✓ I əsrdən–VI əsrədək Albaniyada xristianlığın yayılması mərhələləri və intensivlik dərəcəsini göstərmək. XI əsrədək Şimal-Qərbi Albaniyada xristian əhalinin antixalkidonçu (monofizit) qalmasının səbəblərini və nəticələrini təhlil etmək. Şəki hakimliyində doqmatik mahiyyət daşıyan ixtilaf və fikir ayrılıqları ilə bağlı təhriflərlə dolu ənənəvi təqdimatlara tənqidi yanaşma və obyektiv tarixi reallığın təmin olunması.

✓ Sasanilər dövründə şimal dağ keçidləri boyunca yarımmüstəqil kiçik şahlıqların yaradılması prosesini araşdırmaq. Tarixşünaslıqda Filanşahlıq və ya "müəmmalı Filan" məsələsində yeni konsepsiyanın irəli sürülməsi.

✓ Azərbaycanın (Albaniya) şimal-qərb bölgəsi Xilafət ordularının hədəfində: yeni siyasi şəraitdə Şəki, Kambisena hakimləri və Filanşahın ərəblərə itaət edərək nominal hakimiyyətlərini qoruyub saxlaya bilməsi prosesini araşdırmaq.

✓ Xilafətin çökməsi şəraitində mömin knyaz Qriqor Hammamın "tənəzzül etmiş Albaniya dövlətini bərpa" etməsi, Hammamın varisləri ilə bağlı M.Kalankatuklunun sülalə konsepsiyasına yeni baxış.

✓ Albaniyanın böyük knyazı Sevada adlanan Sahaqın sağsahil Alban vilayətləri uğrunda mübarizəsinə aydınlıq gətirmək.

✓ Gürcü hakimlərinin Şərqə doğru işğalçı yürüşlərinin başlanması və Şəki torpaqlarını təhdid etməsi ilə bağlı məsələləri işıqlandırmaq.

✓ Senekərimin vasitəsilə çoxdan yox olmuş dövlətin bərpa olunması ilə solsahil Alban vilayətlərində (Şəki hakimliyində) Adarnersehin nəslinin hakimiyyətinin başa çatması məsələsinə aydınlıq gətirilməsi.

✓ Şəki hakimliyi ilə Kaxeti knyazlığının vahid dövlətdə birləşməsi prosesinə və Böyük Kvirikenin dövründə qonşularla münasibətlərinə aydınlıq gətirmək, numizmatika materialları əsasında ölkənin siyasi, iqtisadi və ideoloji tarixinin mühüm aspektlərini aydınlaşdırmaq.

✓ Tənəzzül dövrünü yaşayan Tiflis əmirliyi uğrunda mübarizədə Abxaz-Kartli çarlığına qarşı Birləşmiş Şəki/Hereti-Kaxetinin yürütdüyü siyasətin mahiyyətini açmaq.

✓ Sultan Alp-Arslanın Şəki daxil olmaqla Qafqaz ölkələrinə yürüşünün nəticələrini, hökmdar I Axsartanın yüksək siyasi fəallığı və regional liderliyə yüksəlməsi prosesini araşdırmaq.

✓ Erkən orta əsrlərdə Şimal-Qərbi Azərbaycanda islam dininin yayılması mərhələlərinin araşdırılması.

✓ Gürcü çarı IV Davidin təcavüzkar siyasətinin mahiyyətini açmaq, Şəki hakimliyinin işğalına nail olması, Ersuxi savaşında ilk qələbəsinin nəticələrini təhlil etmək.

✓ Gürcü çarlığı tərkibində sərhədyanı Şəki/Hereti eristavlığının yaranması, Şəki eristavları, 1178-ci il Şəki üsyanının səbəbləri, gedişatı və nəticələrini tədqiq etmək.

✓ Monqolların və xarəzmlilərin yürüşləri dövründə Şəki bölgəsində cərəyan edən proseslərin izlənilməsi.

✓ Tədqiqatdan irəli gələn yekun müddəalar əsasında təkliflər irəli sürmək.

**Tədqiqat metodları.** Ümumelmi metodlar sırasında tarixi, məntiqi və sistemli metodlar əsas götürülmüşdür. Tədqiqat işində bütün hadisələr və obyektlərin təkamül prosesi müəyyən olunmuş məkan (məntiqi metod) və zaman (tarixi metod) çərçivəsində təhlil olunmuş, konkretdən abstrakta (mahiyyət-məzmun və formal-kəmiyyət modellərinə, eləcə də deduktiv-inteqral modellərin yaradılmasına keçid) və abstraktdan konkretə keçid mühüm əhəmiyyət kəsb etmişdir. Tədqiqat zamanı sistemli yanaşma və təhlil, səbəb-nəticə analizi metodlarından, konkret tarixi metodların

ənənəvi növlərindən: tarixi-genetik, tarixi-müqayisəli, tarixi-tipoloji və struktur-funksional analizdən ibarət tarixi-sistemli metodlardan istifadə olunmuşdur. Dissertasiyada tədqiqatın metodoloji və nəzəri əsası olaraq elmilik, obyektivlik və tarixilik prinsiplərindən istifadə edilmişdir.

Dissertasiyanın yazılması üçün başlıca mənbə müxtəlif səciyyəli yazılı qaynaq və ədəbiyyat materialları olmuşdur. Bölgənin qədim və erkən orta əsr siyasi tarixi və tarixi coğrafiyasını araşdırarkən antik müəlliflərin (Strabon, Plutarx, Ptolemey, Korneli Tasit, Plini), erkən orta əsr alban (M.Kalankatuklu, Kirakos Qandzaketsi, Mxitar Qoş), erməni (VII əsr erməni coğrafiyası, Vardapet Qevond, Ovanes Drasxanakertsi, Taronlu Stepanos Asoxik, Böyük Vardan, Vardapet Aristakes Lastivertsi, Rahib Maqakiya), gürcü (Yakov Tsurtaveli, Leonti Mroveli, Sumbat Davitisdze və "Kartlis tsxovreba" külliyyatı), müsəlman (Bəlazuri, İbn Xordadbeh, Yəqubi, İbn əl-Fəqih, Əhməd ibn Ə`sam əl-Kufi, əl-Məs'udi, İbn Havqəl, əl-Müqəddəsi, İbn əl-Əsir, Yaqut Həməvi, İbn Rusta, Şihabəddin Məhəmməd ən-Nəsəvi, Əhməd ibn Lütfullah (Münəccim-başı), Sədrəddin Əli əl-Hüseyni) və s. mənbələrdən geniş istifadə olunmuşdur. Müəllif tədqiq etdiyi mövzu üzrə geniş mənbələrdən istifadə etməklə yanaşı, milli tarixşünaslıqda ilk dəfə olaraq orta əsr gürcü mənbələrinə yeni münasibət formalaşdırmış və dəqiq təhlil süzgəcindən keçirmişdir.

Dissertasiyanın yazılmasında arxeoloji, antropoloji, numizmatika və s. sahələrdə aparılmış tədqiqatlara, habelə müasir elmi-nəzəri araşdırmalara da müraciət edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

– Antik dövr mənbələri Şimal-Qərbi Albaniya torpaqlarının Dəryal keçidinədək (Sarmat qapıları) uzandığını və bu qapıların İberiya ilə Albaniya arasında sərhəd təşkil etdiyini təsdiq edir. Bu baxımdan antik dövrdə Azərbaycanın (Albaniya) şimal-qərb sərhədlərini Hereti/Şəki vilayəti ilə məhdudlaşdırmaq olmaz.

– Qədim yunan müəllifi K.Ptolemeyin xüsusi koordinatlar əsasında tərtib etdiyi yazılı xəritə vasitəsilə Albaniyanın qərb sərhədləri müəyyənləşdirilmişdir. Min illər boyunca dəyişməz qalan

hidronimlər üzrə enlik və uzunluq koordinatlarını düzməklə bölgə üzrə Ptolemey xəritəsi bərpa olunmuşdur.

– Orta əsr gürcü mənbələrindən bizə məlum olan Hereti ölkəsi və oranın qədim sakinləri herlər/heretinlər haqqında dəqiq və aydın elmi nəticələrə gəlinmişdir. Bəzi tədqiqatçıların Hereti/herləri-Ereti/erlər şəklində təqdim etmələrinin yanlış olduğu və bölgə tarixi ilə bağlı böyük təhrifin təməlində durduğu müəyyən olunmuşdur.

– Gürcü qaynaqları əsasında Şəki/Hereti ölkəsinin Kartli istiqamətində qərbi, şimal-qərbi sərhədləri müəyyənləşdirilmişdir: Debed-Xrami çayı mənsəbindən (Xunani) Samebis çayı mənsəbinədək düzünə keçən sərhəd xətti, Şuamta dağlarınadək Samebis çayı, oradan Qulqulayadək Turdos çayı, Ştoris çayı boyunca Böyük Qafqazadək; Tuşeti istiqamətində Lopotis çayı, Didoeti, Dağıstan ilə Böyük Qafqaz dağları.

– Orta əsr gürcü mənbələrindəki her tayfalarına məxsus Hereti ilə ərəb mənbələrindəki filan tayfalarına məxsus Filanşahlığın eyniyyət təşkil etdiyi müəyyən edilmişdir.

– İberiyada xristianlığı təbliğ etmiş müqəddəs Ninonun missionerlik arealına Hereti/Şəki torpaqlarının daxil olmadığı gürcü mənbələri əsasında sübuta yetirilmişdir. III Mömin Vaçaqanın islahatları nəticəsində Şimal-Qərbi Albaniya tayfaları arasında xristianlığın V əsrin sonları–VI əsrin əvvəllərindən etibarən sürətlə yayılmağa başladığı müəyyən edilmişdir.

– Sasanilərin, ardınca ərəblərin hücumları qarşısında ölkənin birinci böyük knyazı Cavanşir solsahil Alban vilayətlərində möhkəmlənməyə çalışırdı. Azərbaycanın (Albaniya) şimal-qərb bölgəsi də Xilafət ordularının hədəfinə çevrilmiş və sərkərdə Salman ibn Rəbiə Qəbələni tutmuş, Şakkan və Kamiberan hakimləri və Filan əhalisi ilə bac vermək şərti əsasında sülh bağlamışdı.

– Ərəblər xəzərlərə və dağların şahlarına qarşı yürüşlərində Şəki və Filan ərazisindəki keçidlərdən də istifadə edirdilər. Şimal-Qərbi Azərbaycan tayfaları da ərəblərin xəzərlərə qarşı yürüşlərində fəal iştirak edirdi. Ərəblərin köçürmə siyasətində dağlı tayfaların bir hissəsinin Şəki və Xayzan ətrafına köçürülməsi nəzərdə tutulurdu. Ərəb-xəzər qarşıdurması bölgədə islamın sürətlə yayılmasına mane olurdu.

– Səhlin mülkü Şəki və Azərbaycanda iki Şəkinin olması məsələsinə aydınlıq gətirilmişdir: bunlardan biri solsahil Albaniyada yerləşən Şəki vilayəti, digəri isə sağsahildə yerləşən, doqquz havardan ibarət Uti əyalətinin mühüm inzibati vahidlərindən biri olan Şakesenadır. "Səhlin mülkü Şəki" dedikdə hansısa bir qala, şəhər deyil, uzunluğu təqribən 70 fərsəx olan, Qəbələdən Telaviyədək ərazini əhatə edən böyük vilayət nəzərdə tutulmalıdır.

– Mömin knyaz Qriqor Hammam tənəzzül etmiş Albaniya dövlətini bərpa etməyə müvəffəq olmuş, islam və xristianlığın qovuşduğu, birgəyaşayışın təmin olunduğu ölkənin hökmdarı kimi, o dövrdə regionda cərəyan edən siyasi proseslərin fəal iştirakçısına çevrilmişdir.

– Albaniyada hökmdardan sonra böyük knyaz ölkənin idarəçiliyində mühüm rol oynayırdı. Əla silahlanmış, zirehlə təchiz edilmiş piyada və süvari alaylarından ibarət səkkiz min nəfərdən çox qoşunu olan Albaniyanın böyük knyazı Sevada adlanan Sahaq sağsahil vilayətlərin, Girdıman qalasının sahibi kimi geniş mülki və hərbi hakimiyyətə malik olmuşdur.

– Yusif ibn Əbu-Sacın 907-914-cü illərdə yürüşləri zamanı sacilərlə yaxın münasibətlərdə olan Albaniya, Şəki hakimliyinə toxunulmamış, əksinə Alban knyazları bölgədə Saciləri dəstəkləyən yeganə qüvvəyə çevrilmişdilər. Sacilərin erməni knyazlıqlarına münasibətdə yürütdüyü parçalama siyasətində Alban knyazları da fəal iştirak edirdilər.

– Dzorapor vilayətinə və Uti əyalətinə sahib olmaq məsələsində Alban knyazlarının erməni və gürcü knyazları ilə maraqları toqquşurdu. Buradan qaynaqlanan ixtilaf sonradan erməni şahzadəsinin məkrli siyasəti nəticəsində Albaniyanın böyük knyazı Sahaqın oğlu Qriqor ilə birlikdə girov götürülüb gözlərinin kor edilməsinə, Kaxeti xorepiskopunun isə Abxaz çarı ilə birlikdə Şəki hakimliyinə hücum etməsinə vəsilə olmuşdur.

– Kaxeti xorepiskopu ilə Abxaz çarının birlikdə 918-ci ildə Şəki/Hereti hakimliyinə qarşı müharibəsi ilə gürcü hakimlərinin Şərqə doğru işğalçı yürüşləri başlanmışdı. Şəki/Hereti hökmdarı Adarnersehin Tao-Klarceti knyazı ilə qohumluq əlaqələri yaratması, patriki titulu daşıması onun Bizans imperiyası ilə sıx əlaqələrindən

xəbər verirdi.

– Şəki/Hereti hökmdarı İşxanikin dövründə monofizitlərlə diofizitlər arasında doqmatik mahiyyət daşıyan ixtilaf və fikir ayrılıqları ölkədə böyük qarışıqlıqlara səbəb olmuşdur. Hakim sülalənin bəzi üzvləri Alban katolikosları ilə birlikdə əhali arasında xalkidonçuluğu yaymağa cəhd etmiş, monofizit meyilli Alban knyazlarının mübarizəsi və erməni katolikosunun fəal müdaxiləsi ilə antixalkidonçuluq yenidən bərqərar olmuşdur.

– Sağsahil və solsahilə münasibətdə çoxdan yox olmuş dövləti bərpa edən və 1003-cü ilədək hakimiyyətdə olan Senekərimin güclənərək Abxaz çarına və Şirvanşahlara qarşı uğurlu müharibələr aparması qonşu dövlətlər tərəfindən dəstəklənirdi.

– Abxaz-Kartli çarı III Baqratın Kaxeti və Şəki/Hereti torpaqlarını ələ keçirmək məqsədilə başladığı müharibələri zamanı Şəki/Hereti hakimləri xorepiskop Davidlə birləşmişlər. Bu birləşmə Şəki/Hereti əhalisinin və hakimlərinin iradəsi ilə ümumi düşmənə qarşı qüvvələrin və səylərin birləşdirilməsi idi.

– 1014-cü ildə Şəki/Hereti və Kaxeti hakimləri gürcü çarlığından ayrılmış, bir müddət sonra əsirlikdən qurtulmuş Davidin oğlu Kvirikeni albanların/ranların və kaxların hökmdarı tituluna sahib Birləşmiş dövlətin ilk hökmdarı kimi taxta çıxarmışdılar. Bəzi tədqiqatçıların tarixi faktları təhrif edərək bu hadisəni siyasi birləşmə kimi deyil, Kaxeti knyazlığının Şəki hakimliyini ilhaq etməsi kimi təqdim etmələri tamamilə yanlışdır.

– Gürcü mənbəsinin Böyük Kvirike adlandırdığı Birləşmiş Şəki/Hereti-Kaxeti hökmdarı müttəfiqləri ilə birlikdə Gəncə əmirliyinə qarşı hərbi yürüş təşkil etmiş, Kaxetiyə soxulmuş Osetin çarı Urdureni məğlub edərək öldürmüş, özü də qan intiqamının qurbanı olmuşdu.

– Birləşmiş Şəki/Hereti-Kaxeti hökmdarı Qağik dəfələrlə Tiflis həndəvərinə qoşun çəkməklə şəhərin gürcü çarı IV Baqrat tərəfindən ələ keçirilməsinə yol verməmiş, Abxaz-Kartli çarlığında uzun illər davam etmiş IV Baqrat – Liparit qarşıdurmasından məharətlə istifadə etmiş, qoşunlarını müntəzəm olaraq müttəfiqi Kldekar eristavınınköməyinə göndərmişdi.

– Səlcuqların yürüşü zamanı faktiki üçtərəfli hərbi təcavüzlə

üzləşmiş Birləşmiş Şəki/Hereti-Kaxeti hökmdarı I Axsartan xeyli zəifləmiş, bütün istiqamətlərdən ərazi itkiləri ilə üzləşmişdi. Sultan Alp-Arslana itaət edən I Axsartan illik xərac ödəməyi öhdəsinə götürmüş, islam dinini qəbul etmiş, sultanın Abxaz-Kartli çarlığına qarşı yürüşü zamanı onu müşayiət etmişdi.

– Təsadüf nəticəsində əsir aldığı Gəncə əmirindən məharətlə istifadə edən, I Axsartan, Şəddadilərin nəzarəti altına keçmiş Xornabuc və Aradeti qalaları daxil olmaqla ölkənin cənub torpaqlarını geri qaytarmış, sonra da əmirin verilməsi qarşılığında Kaxetinin mərkəzi hesab olunan Boçorma və Ucarma şəhər-qalalarını gürcü çarından təhvil almışdı.

– Sultanın himayəsinə keçdikdən sonra I Axsartan xeyli güclənmiş, regional liderlik yenidən Birləşmiş dövlətə keçmişdi. Ölkə daxilində baş verən üsyanları yatırmağa gücü yetməyən gürcü çarı, 1073-cü ildə Rustavi və Losobanni qalalarını I Axsartana vermək məcburiyyətində qalmış, müxaliflərə və səlcuqlara qarşı mübarizədə Birləşmiş dövlətlə ittifaqa girmişdi. Səlcuqların təzyiqlərinin artması şəraitində Axsartan tədricən sultandan uzaqlaşmağa başlamış, Parsxisi döyüşündə gürcü çarı ilə birlikdə Arranın yeni hakimi Savtəkin Alxası məğlub edə bilmişdi. I Axsartan Vejin qalasında səlcuqlara qarşı müqaviməti təşkil edə bilmiş, bundan sonra sultana itaət etmiş və Birləşmiş dövlətin hökmdarı kimi tanınmışdı.

– İslam və xristianlığın qovuşduğu, birgəyaşayışın təmin olunduğu Şəki ölkəsinin hökmdarları xristian dinlərini saxlamaqla yanaşı, islam dinini də qəbul etmişdilər.

– Birləşmiş Şəki/Hereti-Kaxeti hökmdarı cəsur və mərd IV Kvirikeyə qarşı IV Davidin savaşa başlaması və Zedazadeni qalasını ələ kecirməsi onun Birləşmiş dövləti ələ keçirmək istiqamətində ilk cəhdi olub, lokal və ya kəşfiyyat xarakteri daşımışdır. Birləşmiş Şəki/Hereti-Kaxetinin sonuncu hökmdarı II Axsartanın Şəki/Hereti feodal nəsli Baramoğulları tərəfindən yaxalanıb IV Davidə təhvil verilməsi, onların ölkənin siyasi həyatında oynadıqları mühüm və aparıcı rolunu üzə çıxarırdı.

– Şəki hakimliyini və Şirvanşahlar dövlətini işğal etməyə çalışan IV David səlcuq orduları ilə toqquşmalı olmuşdu. Ersuxi

savaşında səlcuqlar üzərində qələbə qazana bilmiş gürcü çarı Şəki şəhəri və Kiş qalası timsalında ölkənin bir hissəsində güclü müqavimətlə üzləşmiş, 13 illik mübarizədən sonra – 1117-ci ildə Kiş qalasının hakimləri Qriqoloğulları nəslinin müqavimətini qıraraq qalanı tuta bilmişdi. Qıpçaqlardan real qüvvə alan IV Davidin Şirvan xanədanını Gürcüstana tabe etmək niyyəti onun vəfatı ilə yarımçıq qalmışdı.

– Şəki/Hereti torpaqlarının işğalı və gürcüləşdirmə siyasətinin başlanması ilə əlaqədar Şəki/Hereti hərbi-inzibati dairəsi (eristavlığı) yaradılmışdı. İlk Şəki/Hereti eristavlarının adları bəlli olmasa da, gürcü mənbələrdən məlum olan ilk eristavlar nəsli Kolonkeloğullarının ən azı 1161-ci ildən 1184-cü ilədək, bundan sonra ikinci eristavlar nəsli Kiş qalası hakimləri Qriqoloğullarının bu vəzifəni tutduqları müəyyən edilmişdir.

– İşğala qarşı 1178-ci ildə baş vermiş üsyanda keçmiş Şəki hakimliyi əhalisi yerli hakimlərin başçılığı altında hərəkət edir, kömək məqsədilə qonşu dağlı tayfalarına müraciət etmişdilər. Qonşu Qafqaz xalqlarının da dəstəklədiyi üsyançılar gürcü qoşunları ilə həlledici döyüşdə məğlub oldular. Buna baxmayaraq, Şəki/Hereti eristavlığında həyəcanların daha 6 il uğurlu şəkildə davam etdiyi, bu mübarizəyə Kiş qalası hakimləri Qriqoloğullarının rəhbərlik etdiyi və sonda eristavlıq vəzifəsini zorla ələ keçirdikləri məlum olur.

– Monqolların Cənubi Qafqaza kəşfiyyat xarakterli birinci yürüşü Şəki torpaqlarından yan keçmişdir. Xarəzmlilər Kambisena və İori sahillərini beş il ərzində qarət etmiş, ələ keçirdikləri Şəki və Qəbələdən isə tezliklə qovulmuşdular. Monqolların ikinci yürüşü zamanı Şəki bölgəsi də istila olunmuş və ciddi dağıntılara məruz qalmışdır. Şəki/Hereti eristavı Şota Kupari fərdi qaydada monqollarla sazişə girərək itaət etmiş, gürcü çarlığının yüksək mənsəb sahibləri ilə birlikdə dörd elçidən biri olaraq danışıqlar aparmaq məqsədilə monqolların yanına göndərilmişdir. Monqolların Cənubi Qafqazda möhkəmlənməsi ilə gürcü çarlığı tənəzzülə uğramış, Şəki/Hereti və Kaxeti əraziləri bütövlükdə vahid tümən tərkibində saxlanılmışdı.

**Tədqiqatın elmi yeniliyi.** İlk dəfə olaraq milli tarixşünaslığımızda:

– Azərbaycanın beynəlxalq münasibətlər tarixinin araşdırılmasında prioritet istiqamətlərdən biri kimi, Şəki hakimliyinin tarixinə dair materiallar əsasında IX əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətləri kompleks şəkildə, müstəqil tədqiqat obyekti kimi araşdırılmış, müvafiq dövrdə Azərbaycan-Gürcüstan münasibətlərinin xarakterik xüsusiyyətləri ayırd edilmişdir.

– Xilafətdən sonra Azərbaycanın şimal-qərb bölgəsində yaranmış Şəki hakimliyinin tarixi orta əsr Azərbaycan-Gürcüstan feodal dövlətlərarası münasibətləri kontekstində dərindən və hərtərəfli tədqiq olunmuşdur.

– Şəki hakimliyinin tarixinin öyrənilməsi ilə birbaşa bağlı olan Şimal-Qərbi Azərbaycanın qədim və erkən orta əsrlər dövrü tarixi coğrafiyası və siyasi tarixi araşdırılmışdır.

– Leonti Mrovelinin "Gürcü çarlarının həyatı" əsəri, eləcə də Gürcüstanın siyasi coğrafiyasını vermiş Vaxuşti Baqrationinin məlumatları əsasında Şəki/Hereti ölkəsinin hüdudları, əhalisi ilə bağlı kifayət qədər dəqiq, mükəmməl bir mənzərə yaratmaq mümkün olmuşdur.

– Filanşahlıq ilə bağlı yeni konsepsiya irəli sürülmüş, onun Cənubi Dağıstan və Şimal-Qərbi Azərbaycanda, Qafqaz dağlarının cənub ətəklərində yerləşdiyi qənaətinə gəlinmişdir. Dövrün ərəb qaynaqları əsasında Filanşahların iqamətgahının Xayzan adlanan şəhər olduğu, bu səbəbdən bəzən Xayzanın Filan anlamında işləndiyi qənaətinə gəlinmişdir.

– Albaniya katolikosu Bakur Nersesin ölkəni xalkidonçuluğa tabe etmək cəhdi ilə əlaqədar yaranmış kilsə böhranı zamanı Qəbələ və Kambisenadan fərqli olaraq, Şəki kilsə dairəsində diofizit meyillərin olmadığı müəyyən edilmişdir.

– Albaniya dövlətini bərpa etmiş mömin knyaz Qriqor Hammam və onun sülaləsi ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirilmişdir. Qriqor Hammamın qurduğu dövlət onun vəfatından sonra süqut etməmiş və onu hakimiyyətdə Adarnerseh əvəz etmişdir. Şəki hakimliyində Qriqor Hammamdan başlanan sülalə təxminən 1010-cu ilədək hakimiyyətdə olmuşdur.

– 886-919-cu illər tənəzzül etmiş Albaniya dövlətinin bərpa

olunması uğrunda yerli sülalənin apardığı mübarizə dövrü kimi müəyyən edilmişdir. Qriqor Hammamın dövründən sağsahil Alban vilayətlərində möhkəmlənməyə çalışan yerli alban hakimlərinin mübarizəsi 919-cu ildə iflasa uğramışdı. Bundan sonra Qriqor Hammam sülaləsinin hakimiyyəti solsahil ərazilərdə, Şəki hakimliyində davam etmişdi.

– Gürcü hakimlərinin Şərqə doğru işğalçı yürüşlərinin başlanğıc mərhələsində Şəki/Hereti hökmdarı Adarnersehin təhlükəni sovuşdurmaq məqsədilə atdığı hərbi-siyasi addımlar nəticəsində təcavüzün qarşısı alındığı müəyyən edilmişdir.

– İşxanikin hakimiyyətinədək Heretidə əvvəl başdan hamısının kafır, monofizit olması ilə bağlı gürcü mənbəsi “Matiane Kartlisa”nın məlumatı, qədim dövrlərdən Heretini İberiyanın tərkibində görmək istəyən tədqiqatçıların müasir Şərqi Gürcüstanın siyasi, etnik və dini tarixinə dair uydurma konsepsiyalarının əksinə olaraq, XI əsrədək Heretinin İberiya ilə heç bir bağlılığının olmadığını təsdiq edir.

– Senekərimin vasitəsilə çoxdan yox olmuş dövlətin yenidən bərpa olunması ilə solsahil Alban vilayətlərində (Şəki hakimliyində) Adarnersehin xətti üzrə nəslin hakimiyyətinin başa çatdığı müəyyən edilmişdir.

– Şəki hakimliyi ilə Kaxeti knyazlığının vahid dövlətdə birləşməsinə aparan mürəkkəb prosesin 1014-cü ildə başa çatdığı sübut olunmuşdur. Siyasi əlaqələrin inkişaf edərək bu iki ölkənin vahid dövlətdə birləşməsinə təsir göstərən başlıca amillər sırasında müvafiq dövrdə qonşu torpaqları təhdid edən Abxaz-Kartli çarlığına qarşı mübarizədə səylərin birləşdirilməsi göstərilmişdir.

– Birləşmiş Şəki/Hereti-Kaxeti dövlətinin XI əsrin 20-30-cu illərində Şərq istiqamətində fəallaşmağa başlamış Bizans imperiyasına qarşı mübarizəyə cəlb olunduğu, imperator tərəfindən məğlubiyyətə uğradılmış və təqib olunan gürcü çarının köməyinə yetişmiş “şakilər və sanarlar”ın bu müharibədə rolu tədqiq edilmişdir.

– Böyük Kvirike dövrünə aid numizmatika materiallarının öyrənilməsi əsasında ölkənin siyasi, iqtisadi və ideoloji tarixinin mühüm aspektləri işıqlandırılmışdır. Ölkədə pul zərbi və pul

emissiyasının təkamülü son nəticədə xristian və müsəlman sikkələrinin orijinal növünün yaranmasına gətirib çıxarmışdır.

– Böyük Kvirikenin taxt-tacına bacısı oğlu Qağikin qadın xətti üzrə qanuni varis kimi sahib olduğu, onun dövründə Abxaz-Kartli çarlığı ilə münasibətlərin yenidən kəskinləşdiyi, bütün vasitələrlə gürcü hakimlərinin Tiflis əmirliyinə sahiblənmək iddialarına qarşı çıxdığı, Tiflisin uğursuz mühasirəsindən sonra gürcü çarının Kaxetiyə yürüş etdiyi müəyyən olunmuşdur.

– Birləşmiş Şəki/Hereti-Kaxeti hökmdarı I Axsartan səlcuqlara və gürcü hakimlərinə münasibətdə mühüm siyasi gedişlər etməklə ölkəsini müdafiə etməyə müvəffəq olmuş, güclü rəqib ölkələr arasında çevik manevr edərək rəqiblərindən birinə yaxınlaşaraq digərinə qarşı mübarizə aparmış, rəsmi olaraq islam dinini qəbul etmiş və sultanın himayəsinə sığınaraq regional rəqabətdə liderliyə yüksəlmişdir.

– Şəki hakimliyi əhalisinin böyük əksəriyyətinin xristian-monofizit olmasına baxmayaraq, VII-XII əsrlərdə islam dininin bölgəyə nüfuz etməsi nəticəsində islam və xristianlığın qovuşduğu, birgəyaşayışın təmin olunduğu ölkələrdən birinə çevrilmişdi. Xilafət dövründə yeni dinin Şimal-Qərbi Azərbaycan torpaqlarında müvəffəqiyyətlə yayıla bilməməsi həm xəzər türkləri timsalında xarici müdaxilədən, həm də xristian əhaliyə münasibətdə ərəblərin yürütdüyü siyasətdən qaynaqlanırdı. İslam dininin növbəti dalğası XI əsrin ortalarında səlcuqların Azərbaycana yürüşləri zamanı Şimal-Qərbi Azərbaycan tayfalarını da haqlamışdı.

– XI əsrin sonu–XII əsrin əvvəllərində regionda islam-türk/oğuz hərbi siyasi amilinin müvəqqəti olaraq zəifləməsi, əksinə qıpçaq-türk amilinin güclənməsi fonunda gürcü hakimlərinin Şərqə doğru işğalçı yürüşləri nəticəsində Birləşmiş Şəki/Hereti-Kaxeti dövləti süqut etmişdi.

– Keçmiş Şəki hakimliyi ərazilərinin gürcü çarlığı tərkibində sərhədyanı hərbi-inzibati dairəyə çevrilməsinə baxmayaraq, Şəki/Hereti eristavlığı dövlətlərarası münasibətlərdə fəallığı ilə seçilirdi. Şəki/Hereti eristavlığı əhalisinin dövlətçiliyin bərpası uğrunda mübarizəsinin ən şanlı səhifəsi işğala qarşı 1178-ci il üsyanıdır.

– XIII əsrin I yarısında monqolların, onlara qarşı müqaviməti təşkil etmək adı altında Xarəzmşah Cəlaləddinin yürüşləri və Azərbaycanda möhkəmlənmələri dövründə Şəki bölgəsində cərəyan edən proseslər izlənilmişdir.

– Müəllif “Kartlis tsxovreba” külliyyatından çoxsaylı və əvvəllər istifadə olunmamış dəyərli materialları elmi dövriyyəyə daxil etmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** IX əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətlərində Şəki hakimliyinin yeri və rolunun aydınlaşdırılması ilə bağlı aşkar olunub elmi dövriyyəyə cəlb edilmiş materiallar və onlardan çıxarılan elmi nəticələr çoxcildli Azərbaycan tarixinin, eləcə də üzvi surətdə bağlı olduğu Qafqaz tarixinin müvafiq dövrü üzrə obyektiv elmi mənzərəsinin yaradılmasına, çoxsaylı tarixi təhriflərin aradan qaldırılmasına mühüm töhfə verə bilər. Dissertasiyanın materialları və nəticələri Azərbaycan və Qafqaz tarixinə dair ümumi əsərlərin, dərsliklərin hazırlanması, İntibah dövründə Azərbaycan və Qafqazda baş verən tarixi geosiyasi proseslərin daha dərindən öyrənilməsində yardımçı ola bilər. Bundan əlavə Azərbaycanın şimal-qərb bölgəsinin tarixinə həsr olunmuş monoqrafik əsər və topluların hazırlanmasında istifadə oluna bilər.

Tədqiqatın nəticələri müasir dövrdə Azərbaycan-Gürcüstan dövlətlərarası qarşılıqlı əlaqələrində müşahidə olunan dostluq və strateji əməkdaşlıq münasibətlərinin daha da genişlənməsinə və dərinləşməsinə xidmət edə bilər. Dissertasiya işinin nəticələrindən təlim-tədris prosesində, Azərbaycanın beynəlxalq münasibətlər tarixinin tədrisində istifadə etmək olar. Tədqiqat işindən ali və orta məktəb müəllimləri tarix, regionşünaslıq, qafqazşünaslıq kursları üzrə mühazirə mətnlərinin tərtibində, xüsusi kursların, seminarların keçirilməsində əsas material kimi istifadə edə bilərlər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın başlıca müddəaları müəllifin “Şimal-Qərbi Azərbaycan: ingiloylar” (17.5 ç.v.), həmmüəllifi olduğu “Şəki: ən qədim zamanlardan bugünümüzədək” (s. 96-120) monoqrafiyalarında və mövzuya aid elmi nəşrlərdə çap olunmuş 20 məqalədə (o cümlədən 7-si xaricdə) öz əksini tapmışdır. Müəyyən məsələlər üzrə müəllif Bakı Slavyan Universitetində,

AMEA-nın Tarix İnstitutunda, Türkiyənin Kayseri, Ordu və İstanbul şəhərlərində, Gürcüstanın paytaxtı Tbilisidə, Qırğızıstanın paytaxtı Bişkekdə keçirilmiş elmi sessiya və konfranslarda (12 konfrans materialı və tezis) məruzələr etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya Bakı Slavyan Universitetinin Humanitar və sosial elmlər fakültəsinin Beynəlxalq münasibətlər kafedrasında hazırlanmış, müzakirə olunmuş və təsdiq edilmişdir.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi həcmi.** Dissertasiyanın ümumi həcmi 570605 işarədir (ədəbiyyat siyahısı, əlavələr və ixtisarlar daxil olmaqla). O cümlədən Titul səhifəsi – 426, Mündəricat – 3653, Giriş – 62677, I Fəsil – 135975, II Fəsil –87329, III Fəsil – 130006, IV Fəsil – 85960, Nəticə – 25603 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, işlənmə dərəcəsi təhlil olunur, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar və elmi yeniliyi qeyd olunur, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, işin aprobasiyası və tətbiqi, yerinə yetirildiyi təşkilat, dissertasiyanın struktur bölmələrinin işarə ilə həcmi göstərilir.

Dissertasiyanın **"Şimal-Qərbi Azərbaycanın tarixi coğrafiyası və qonşularla münasibətləri qədim və erkən orta əsrlərdə"** adlanan **birinci fəsli** iki paraqrafdan ibarətdir. Dörd bənddən ibarət olan **"Şimal-Qərbi Azərbaycanın tarixi coğrafiyası qədim və erkən orta əsr mənbələrində"** adlanan **birinci paraqrafın birinci bəndində** Albaniyanın şimal-qərb torpaqlarının Dəryal keçidinədək uzandığını təsdiq edən Antik dövr mənbələri (Strabon, Böyük Plini, K.Tasit) təhlil olunur. Qafqaz dövlətlərinin qədim sərhədləri ilə bağlı tam və ətraflı məlumat verən K.Ptolemeyə görə, Sarmat qapıları eyni zamanda İberiya ilə Albaniya arasında sərhəd təşkil edirdi. Deməli, bütün hallarda Albaniyanın şimal-qərb sərhədlərini Hereti/Şəki vilayəti ilə məhdudlaşdırmaq düzgün deyil.

Sözü gedən müasir Şərqi Gürcüstan torpaqlarının qədim dövrlərdə Albaniyaya daxil olmasını arxeoloji qazıntılar (Yaloylutəpə mədəniyyəti), Albaniya xristian arxitekturasına məxsus tipik xristian abidələri, antropoloji və s. faktlar da sübut edir.

**Birinci paraqrafın ikinci bəndində** Şimal-Qərbi Azərbaycanın hüdudları və qonşuları məsələsi orta əsr gürcü və erməni mənbələri əsasında tədqiq olunmuşdur. Gürcü mənbələrindəki Hereti ölkəsi və sakinləri her/hernilərin gürcü tədqiqatçıları tərəfindən məqsədyönlü şəkildə "Ereti-erlər" formasında təqdim olunması qəbul olunmazdır və bölgə tarixi ilə bağlı Qafqazşünaslıqda başladılan böyük təhriflərin təməlində durur. V-XI əsrlərdə yazılmış bütün gürcü mənbələrində Kartli hüdudlarından kənarda, "Hereti vilayəti" və "Hereti sərhədi"ndən bəhs olunmaqdadır. XI əsr gürcü salnaməçisi Leonti Mroveli və XVIII əsr gürcü tarixçisi Vaxuşti Baqrationinin məlumatları əsasında asanlıqla Şəki/Hereti ərazilərini dəqiqləşdirmək mümkün olduğu halda, müasir tədqiqatçılar arasında mövcud fikir ayrılıqları və süni şəkildə uydurulmuş problem, əslində tarixi gürcü torpaqlarının Albaniya hesabına şərqə doğru genişləndirmək cəhdlərindən irəli gəlməkdədir. Bilavasitə bölgə ilə bağlılığı olmayan erməni mənbələrindən Şimal-Qərbi Azərbaycan vilayətləri və tayfaları ilə bağlı əldə olunan cüzi məlumatlar digər mənbə materialları ilə müqayisə etmək baxımından müəyyən əhəmiyyət kəsb edir.

**Birinci paraqrafın üçüncü bəndində** Filanşahlıq, "müəmmalı Filan" ilə bağlı irəli sürülmüş yeni konsepsiya Filan ölkəsinin Albaniyanın tərkib hissəsi olmuş Cənubi Dağıstan və Şimal-Qərbi Azərbaycanda lokalizasiyasına əsaslanır[91]. Dərbənddən Dəryaladək Qafqaz keçidlərində tikilmiş 360 istehkamdan (qəsr) 250-nin Filan və Sahib əs-Sərirdə yerləşməsi, mühüm keçidlərdən birinin "Bab-Filanşah" adlanması, Filanın Lakzlardan qərbdə yerləşməsi ilə bağlı məlumatlar Filanşahlığın Qafqaz dağlarının cənub yamaclarında yerləşdiyini təsbit edir. Ərəb mənbələrində

---

[91] Əliyev, Ş.H. Bir daha Filanşahlığın tarixinə dair // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası. Xəbərlər. İctimai elmlər seriyası, – 2018. № 3, – s. 14 - 22.

Filan ölkəsinin şimal-şərqdə Tabasaran, Zirehqıran və Lakz, şimal-qərbdə isə Sahib əs-Sərir şahlıqları ilə sərhəddə yerləşdiyi (sonralar Qoloda, Saxur və ya Dağlıq mahal) məlum olur. Gürcü mənbələrinə əsasən her (ger) tayfalarının etnik ərazisi olan Hereti ilə ərəb mənbələrindəki filan/cilan tayfalarına məxsus Filanşahlığın eyniyyət təşkil etməsi ilə bağlı konsepsiyamıza əsasən, Qafqaz səddi boyunca Alazan vadisi ərazilərin də Filanşahlığın ərazisinə daxil olduğu qənaətinə gəlinmişdir. "Müəmmalı Filan" ölkəsinin sirri Filanşahlıq və Şəki şahlığı haqqında məlumat verən ərəbdilli mənbələrdən qaynaqlanır. IX-X əsrin əvvəllərinə aid ərəb müəllifləri Şəki şahlığı haqqında məlumat vermir, əksinə X əsr ərəb mənbələrində isə Filanşahlıq qeyd olunmur. Bütün bunlar isə Filan torpaqlarının İslam şərqində Şəki adlanan yeni şahlığın tərkibinə daxil olmasına və tədricən Filan adının unudularaq tarix səhnəsindən çıxmasına dəlalət edir.

**Birinci paraqrafın dördüncü bəndində** isə gürcü tarixşünaslığında Hereti/Şəkinin siyasi tarixi və tarixi coğrafiyası ilə bağlı məsələləri təhrif etmək cəhdlərinin əsassız olduğu orta əsr gürcü mənbələri əsasında sübuta yetirilmişdir. Konkret olaraq, e.ə. II-I əsrlərdən etibarən Hereti torpaqlarının guya İberiya dövlətinin tərkibinə qatılması, b.e. I-II əsrlərində Kaxeti və Hereti torpaqlarının yenidən İberiyaya birləşdirilməsi ilə bağlı iddialar, müqəddəs Ninonun missionerlik arealına guya Hereti torpaqlarının daxil olması, Şərqi Gürcüstan və Şəki-Zaqatala zonasında (tarixi Hereti ərazisi) mövcud xristian abidələri gürcü maddi mədəniyyətinin tərkib hissəsi hesab etmələri, Altıncı ümumdünya kilsə məclisinin guya Şəki və Şirvan ilə birlikdə bütün dağlıq vilayətləri Msxet patriarxlığına tabe etməsi, İberiyanın tarixi Suketi vilayətinin (Kasri, Laukasti dərəsi və Nuxpati qalası) qəsdən Qax-Şəki rayonları ərazisində lokalizəsi, Tarondan gəlib Şəkidə yerləşən üç qardaş haqqında rəvayət və s. ilə bağlı tarixi gerçəkliyi bilərəkdən təhrif edən, saxta "tarixi yaradanlar" ifşa olunmuş və obyektiv həqiqət üzə çıxarılmışdır.

Üç bənddən ibarət olan **"Qədim və erkən orta əsrlərdə Azərbaycanın şimal-qərb vilayətləri və qonşularla əlaqələri"** adlanan **ikinci paraqrafın birinci bəndində** Albaniya çarlığı

dövründə Şimal-Qərbi Azərbaycanda cərəyan edən hadisələrə işıq salınmışdır. Romalıların Qafqaza yürüşləri dövründə Albaniyanın şimal-qərb vilayətləri də təcavüzə məruz qalmışdı. Qney Pompey ilə Albaniya hökmdarı Oroys arasında e.ə. 65-ci ildə Alazan çayı sahilində baş vermiş döyüşdə yerli əhalidən toplanmış dəstələr də fəal iştirak etmişdilər. İmperator Neronun seçmə qoşunlarını Kaspi qapılarına, albanlara qarşı başladığı müharibəyə göndərmək niyyəti baş tutmamışdı. Antik müəlliflərin səhvən Kaspi qapıları adlandırdığı Qafqaz qapıları (Dəryal keçidi) İberiya ilə Albaniya sərhədində yerləşirdi. İberiya yaxınlığında yerləşən Ay-Selenaya sitayişlə bağlı məbədin Şəki/Heretidə deyil, ondan qərbdə Albaniyanın İberiya sərhədi yaxınlığında (bəlkə də Alaverdi/Alvan məbədi ərazisi) yerləşdiyi qənaətinə gəlinmişdir. Əhəmənilərin, Parfiyalıların təsiri altında olan Albaniyada, eləcə də Şəki/Heretidə atəşpərəstlik sürətlə yayılırdı. Kiş kəndinin "Şərqin bütün kilsələri və şəhərlərin başlanğıcı" olmasına baxmayaraq, I əsrdə Şimal-Qərbi Albaniya tayfalarını xristianlaşdırmaq mümkün olmamışdı. III Mömin Vaçaqanın islahatları nəticəsində, V əsrin sonları–VI əsrin əvvəllərində Şimal-Qərbi Albaniyada xristianlıq sürətlə yayılmağa başlamışdı. VII əsrin əvvəllərində Bizansın təsiri altında gürcü kilsəsi xalkidon (diofizit) məzhəbinə qoşulmuş, Albaniyada isə monofizit cərəyanı Sasanilərin fəal köməyi sayəsində qələbə qazanmışdı. Sasani şahlarının şimal dağ keçidlərini bağlamaq məqsədilə inşa etdikləri "Qafqaz səddi"nin mühüm hissəsi Şimal-Qərbi Albaniya, eləcə də Filanşahlıq ərazisindən keçirdi. Sasani şahları sədd boyunca yerləşən tayfalardan yarımmüstəqil kiçik şahlıqlar yaradaraq ölkənin parçalanmasına yönəlmiş siyasət yürüdürdülər[92].

**İkinci paraqrafın ikinci bəndində** Mehranilər sülaləsinin hakimiyyəti illərində bölgədə vəziyyət və qonşularla əlaqələrə nəzər salınmışdır. Ərəblərin işğalçılıq müharibələrinə qarşı mübarizədə böyük nüfuz qazanmış Cavanşir Albaniyanın birinci böyük knyazı kimi taxta çıxır və Sasanilərə qarşı üsyan edir. Kambisena vilayətinə

---

[92] Hacıəli, Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar / Ş.Hacıəli. – Bakı: Təhsil, – 2007. – s. 59-93.

və Kürün o biri sahilində yerləşən ata-baba mülkünə gələn Cavanşir Sasani qoşunları üzərində bir neçə qələbə qazanır və gürcü knyazı Adarnarsehlə "sarsılmaz ittifaq" bağlayır. Sasanilərin, daha sonra ərəb qoşunlarının ölkəsinə hücumları qarşısında Cavanşir Kür çayının sol sahilində yerləşən vilayətlərdə möhkəmlənməyə çalışırdı.

Azərbaycanın (Albaniya) şimal-qərb bölgəsi də Xilafət ordularının hədəfinə çevrilmişdi. Salman ibn Rəbiə Qəbələni tutmuş, Şakkan və Kamiberan hakimləri və Filan əhalisi ilə bac vermək şərti əsasında sülh bağlamışdı. Şəki və Kambisena hakimləri, iqamətgahı Xayzan şəhərində yerləşən Filanşah ərəblərə itaət etdiklərindən öz hakimiyyətlərini qoruyub saxlaya bilmişdilər. Ərəb, Bizans və Xəzər işğalları şəraitində ölkəsini uğurla müdafiə edən Cavanşirin öldürülməsi nəticəsində ölkə müdafiəsiz qalmışdı. Xəzərlərin vaxtaşırı təkrarlanan yürüşləri zamanı əsasən Qafqazın cənub ətəklərində yerləşən vilayətlər, eləcə də Azərbaycanın (Albaniya) şimal-qərb bölgəsi ciddi zərər çəkirdi.

Albaniya katolikosu Bakur Nersesin ölkəni xalkidonçuluğa tabe etmək cəhdinə qarşı monofizitlərin mübarizəsi kilsə böhranına, xəlifə və erməni katolikosunun prosesə müdaxilə etməsinə gətirib çıxarmışdı. Nəticədə alban kilsəsi erməni kilsəsinə tabe etdirilmiş, ölkədə diofizit meyilli qüvvələrə ciddi zərbə vurulmuşdu. Müvafiq dövrdə Qəbələ və Kambisenadan fərqli olaraq, Şəki kilsə dairəsində diofizit meyillərin olmadığının şahidi oluruq.

**İkinci paraqrafın üçüncü bəndində** isə VIII əsrin əvvəlləri–IX əsrin ortalarında ərəb-xəzər müharibələri kontekstində Şəki və Filanşahlıqla bağlı məsələlərə aydınlıq gətirilmişdir. Bəzi ərəb mənbələrində Xayzan şəhəri, Xayzan əhalisinin Filan şahlığı, Filan əhalisinin sinonimi kimi işləndiyi qənaətinə gəlinmişdir. Xayzan şəhərinin Dərbənddən şimalda yerləşməsi ilə bağlı mülahizələrin əksinə olaraq, ərəb müəlliflərinin Şəkinin qonşuluğunda, Xunzax-Qazikumux-Saxur-Qax-Şəki yolunda, qədim gellərin etnik ərazisi Filanda yerləşən Xayzan şəhərindən bəhs etdikləri sübuta yetirilmişdir. Yalnız müsəlmanların hücumlarında iştirak etməli olan Filanşahın müsəlman ordusuna münasibətdə qayğıkeşliyinə, hərbi rəşadətinə, fədakarlığına və tərifəlayiq hərəkətlərinə görə heç bir vergi təyin edilməmişdi. Racu-Tarxanın başçılığı altında xəzərlərin

böyük yürüşü zamanı, “islamın sərhəd şəhəri” Tiflisədək Kürdən şimala Albaniya və Kartli vilayətləri ələ keçirilərək qarət edilmişdi. Filanşahlarla bağlı son məlumat IX əsrin 40-cı illərinə aid olub, Filanşahın köməyi ilə tərcüməçi Sallamenin Xəzər tarxanının yanına yola salınması ilə bağlıdır. IX əsrin sonlarında Albaniyanın bir hissəsində Albaniya dövləti bərpa olunarkən Filanın da yenidən bərpa olunmuş dövlətin tərkibinə daxil edildiyi aydın olur. Ərəblərin köçürmə siyasətində əhalinin Şimal-Qərbi Azərbaycan vilayətlərinə, Şəki və Xayzan ətrafına köçürülməsi nəzərdə tutulurdu. Bu dövrdə əhalinin müəyyən təbəqələrinin islam dinini qəbul etdikləri məlum olur.

IX əsrin I yarısında ərəb qoşunları Səhl ibn Sumbatın vilayəti Şəkidə itaətdən çıxan əhalinin üsyanını yatırmalı olmuşdular. Ərəblərə qarşı mübarizədə knyaz Səhl ibn Sumbat Babəklə yaxınlaşsa da, sonradan xəyanət edərək onu ərəblərə satmışdı. “Səhlin mülkü Şəki” və “Azərbaycanda iki Şəkinin olması” məsələsinə də aydınlıq gətirmək mümkün olmuşdur: bunlardan biri solsahil Albaniyada yerləşən və tədqiqatımızın obyekti olan Şəki hakimliyi, digəri isə sağsahil Albaniyada yerləşən və doqquz havardan ibarət Uti əyalətinin mühüm inzibati vahidlərindən biri olan Şakesenadır; əslində “Səhlin mülkü Şəki” dedikdə hansısa bir qala, şəhər deyil, uzunluğu təqribən 70 fərsəx olan, Qəbələdən Telaviyədək ərazini əhatə edən böyük bir vilayət başa düşülməlidir.

Dissertasiyanın **“Albaniya dövlətinin bərpası uğrunda mübarizə və Şəki hakimliyinin qonşularla münasibətləri”** adlanan **ikinci fəsli** üç paraqrafdan ibarətdir. **“Şimal-Qərbi Azərbaycan torpaqlarında Şəki hakimliyinin yaranması və qonşularla münasibətləri”** adlanan **birinci paraqrafda** Albaniya dövlətini bərpa etmiş mömin knyaz Qriqor Hammam və onun sülaləsi ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirilmişdir. Şəkinin, sonralar isə bütün Arranın orta əsr hakimi Səhl ibn Sumbatın nəvəsi, Xaçın hökmdarı Adarnarsehin oğlu Qriqor Hammam tənəzzül etmiş dövləti bərpa edə biləcək qanuni və bəlkə də yeganə qüvvə kimi

çıxış etmişdir[93]. Hammam bacarıqlı dövlət başçısı olması ilə yanaşı, dini və elmi əsərlərin müəllifi kimi öz dövrünün geniş dünyagörüşə malik qabaqcıl simalarından biri olmuşdur. Şəki hakimliyində Qriqor Hammamdan başlanan sülalə təxminən 1010-cu ilədək hakimiyyətdə olmuşdur[94].

**"Sağsahil Alban vilayətləri uğrunda mübarizə və onun regional nəticələri"** adlanan **ikinci paraqraf** Hammamın dövründən sağsahil Alban vilayətlərində möhkəmlənməyə çalışan yerli alban hakimlərinin mübarizəsinə həsr olunmuşdur. Hammamın qurduğu dövlət onun vəfatından sonra süqut etməmiş və onu hakimiyyətdə Adarnerseh əvəz etmişdir. Albaniya/Şəki hakimliyində hökmdardan sonra böyük knyaz ölkənin idarəçiliyində mühüm rol oynayırdı. Albaniyanın böyük knyazı Sevada adlanan Sahaq sağsahil Kür vilayətlərinin, Girdıman qalasının sahibi kimi geniş mülki və hərbi hakimiyyətə malik olmuşdur. Əla silahlanmış, zirehlə təchiz edilmiş piyada və süvari alaylarından ibarət səkkiz min nəfərdən çox qoşunu olan Sahaq siyasi rəqibləri ilə mübarizədə Girdıman, Parisos və Corayget vilayətlərini özünə tabe edə bilmişdi[95].

Yusif ibn Əbu-Sacın 907-914-cü illərdə yürüşləri zamanı Albaniya/Şəki hakimliyinə toxunulmamış, əksinə Alban knyazları bölgədə Sациləri dəstəkləyən yeganə qüvvəyə çevrilmişdilər. Sacilərin erməni vilayətlərini asılı vəziyyətdə saxlamaq üçün yürütdüyü parçalama siyasətində Alban knyazları da fəal iştirak edirdilər. Sacilərin diqqəti Xilafətə qarşı mübarizəyə yönəldiyi bir vaxtda Albaniyanın böyük knyazı Sahaq ermənilərə qarşı müharibəyə başlamışdı. Əslində gürcü knyazı, eristavlar eristavı

---

93 Əliyev, Ş.H. Azərbaycan Albanşünaslığında "albanların hökmdarı Qriqor Hammam" məsələsinə dair // Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" IV Beynəlxalq elmi konfransın materialları. – Bakı: – 1-4 may, – 2013. – s. 190-193.

94 Алиев, Ш.Г. Благочестивый князь Григор Хаммам в борьбе за возобновление царство Албанское // – Москва: Вестник Московского государственного лингвистического университета. Общественные науки, – 2017. – Выпуск 3 (787), – с. 105-114.

95 Əliyev, Ş.H. Sağsahil Alban vilayətləri uğrunda mübarizədə Şəki çarlığı // – Bakı: AMEA Tarix İnstitutunun Elmi əsərləri, – 2016. – 61-ci cild, – s. 275-289.

Qurgen ilə qohumluq əlaqələrində olan qonşu hakimlərin iştirak etdiyi və qohumlar arasında hakimiyyət uğrunda mübarizə kimi səciyyələndirilən müharibəyə fəal qoşulan böyük işxan Sahaq Kayean qalası ilə birlikdə Dzorapor vilayətini tutmuş, orada əsir və girov saxlanılan siyasi məhbusları azad etmişdi. Buradan qaynaqlanan ixtilaf sonradan erməni şahzadəsinin məkrli siyasəti nəticəsində Albaniyanın böyük knyazı Sahaqın oğlu Qriqor ilə birlikdə girov götürülüb gözlərini kor edilməsinə, Kaxeti xorepiskopunun isə Abxaz çarı ilə birlikdə Şəki hakimliyinə hücum etməsinə vəsilə olmuşdur. Sağsahil Alban vilayətlərində möhkəmlənməyə çalışan yerli alban feodallarının mübarizəsi 919-cu ildə iflasa uğramışdı. Bundan sonra Qriqor Hammam sülaləsinin hakimiyyəti solsahil ərazilərdə, Kürdən şimala artıq sabit əraziləri olan Şəki hakimliyində davam etmişdi.

**“Gürcü hakimlərinin Şərqə doğru işğalçı yürüşləri və Şəki hakimliyi”** adlanan **üçüncü paraqrafda** Şərqə doğru yürüşlərin başlanması ilə yanaşı, XI əsrin əvvəllərinədək Şəki hakimliyinin tarixinə aydınlıq gətirilmişdir. Gürcü hakimlərinin Şərqə doğru yürüşləri başlanan zaman, müttəfiqlər sərhəddə yerləşən strateji əhəmiyyətli Vejin qalasını ələ keçirə bilməmiş, Şəki/Hereti hökmdarı Adarnersehin əlavə qüvvələrlə oraya gəlməsi səbəbindən barışıq imzalamaq və cüzi nailiyyətləri ilə kifayətlənmək məcburiyyətində qalmışdılar. Sacilərlə yaxın münasibətləri davam etdirən hökmdar Adarnerseh tezliklə itirilmiş ərazilərdə hakimiyyətini bərpa edə bilmişdi. Adarnerseh eristavlar eristavı Qurgenin bacısı, şahzadə Dinar ilə ailə qurub Tao-Klarceti çar ailəsi ilə qohumluq əlaqələri yaratmışdı. Şəki/Hereti hökmdarı Adarnersehin patriki titulu daşıması onun Bizans imperiyası ilə sıx əlaqələrindən xəbər verirdi[96].

Adarnersehin hakimiyyəti 944-955-ci illər arasında başa çatmış və taxtda onun oğlu İşxanik əyləşmişdir. Saciləri əvəz etmiş Salarilər dövlətinə tabe digər vilayətlərlə yanaşı, Şəki hakimliyindən bir milyon dirhəm vergi alınırdı. *“İşxanikin çarlığınadək Heretidə*

---

[96] Əliyev Ş.H. Gürcü feodallarının Şərqə doğru ilk yürüşü və Şəki hakimliyi // – Bakı: ADPU, Tarix, insan və cəmiyyət, – 2020. № 3 (30), – s. 75-84.

*əvvəl başdan hamısının kafir*”[97], başqa sözlə monofizit olması ilə bağlı gürcü mənbəsi “Matiane Kartlisa”nın məlumatı, Şəki/Hereti torpaqlarını “qədim dövrlərdən İberiyanın tərkib hissəsi” hesab edən müasir gürcü tədqiqatçılarının “Şərqi Gürcüstanın etnik, siyasi və dini tarixi ilə bağlı konsepsiyalarını” alt-üst edir və qədim dövrlərdən XI əsrədək İberiya hüdudlarından kənarda qaldığını sübut edir.

Şahzadə Dinar oğlu İşxanikin, eləcə də Albaniya katolikosları Sahaq və daha sonra Qağikin köməyi ilə əhali arasında xalkidonçuluğu yaymağa cəhd etmişdi. Erməni taxtının icazəsi olmadan katolikos seçilmiş Sahaq və Qağik Alban kilsəsini erməni kilsəsindən tamamilə ayırmaq məqsədilə xalkidonçuluğa meyil edirdilər. Xaçında çağırılmış yerli kilsə məclisində ciddi doqmatik mübahisələr səbəbindən bir qərara gəlinmədiyindən erməni katolikosu Ananiya Mokasi oranı tərk etməli olmuşdu. Bununla belə, 958-ci (və ya 961-ci il) ildə monofizit meyilli Alban knyazlarının və əhalinin xalkidon-diofizitliyə qarşı mübarizəsi nəticəsində, habelə erməni katolikosu Ananiya Mokasinin fəal müdaxiləsi ilə Albaniyada antixalkidonçuluq yenidən bərqərar olmuşdur.

Senekərimin vasitəsilə çoxdan yox olmuş dövlətin bərpa olunması ilə solsahil Alban vilayətlərində (Şəki hakimliyində) Adarnersehin xətti üzrə nəslin hakimiyyəti başa çatmışdı. Abxaz çarına və Şirvanşahlara qarşı uğurlu müharibələr aparmış Senekərimin güclənərək ətraf əraziləri ələ keçirməsi bəzi qonşu dövlətlər tərəfindən müsbət qarşılanmışdır. 999-cu ilədək hadisələri ardıcıl izləyən “Albaniya tarixi”nin üçüncü hissəsinin Senekərimin hələ sağlığında ikən yazıldığı və erməni mənbəsindən 1003-cü ilədək hakimiyyətdə olduğu məlum olur.

Dissertasiyanın **“Azərbaycan-Gürcüstan münasibətləri**

---

[97] Летопись Картли / Перевод, введение и примечания Г.В.Цулая – Тбилиси: Мецниереба, – 1982. – с. 53; Матиане Картлиса / Перевод, введение и примечания М.Д.Лордкипанидзе – Тбилиси: Мецниереба, – 1976. – с. 34; Багратиони Вахушти. История царства Грузинского. Памятники грузинской исторической литературы / Перевел, снабдил предисловием, словарями и указателем Н.Т.Накашидзе. – Тбилиси: Мецниереба, – 1976. – с. 127.

**tarixində Birləşmiş Şəki/Hereti-Kaxeti dövləti"** adlanan **üçüncü fəsli** beş paraqrafdan ibarətdir. **"Şəki hakimliyi və Kaxeti xorepiskopluğunun hərbi-siyasi əlaqələri"** adlanan **birinci paraqrafda** bu iki feodal dövlətin birləşməsinə aparan və 1014-cü ildə başa çatan prosesə aydınlıq gətirilmişdir. Abxaz-Kartli çarı III Baqratın yürüşləri zamanı Şəki/Hereti hakimləri ona qarşı mübarizədə Kaxeti xorepiskopu Davidlə birləşmişlər. Bu birləşmə Şəki/Hereti əhalisinin və hakimlərinin iradəsi ilə ümumi düşmənə qarşı qüvvələrin və səylərin birləşdirilməsi idi. Öz knyazlığından məhrum olmuş xorepiskop David isə Şəki/Hereti hakimlərinin köməyi ilə III Baqrata qarşı mübarizə aparmağa çalışırdı[98]. Bunu siyasi birləşmə kimi deyil, Kaxeti knyazlığının Şəki hakimliyini ilhaq etməsi kimi təqdim olunması tamamilə yanlışdır. Gürcü hakimlərinin 1008-1012-ci illərdə Şərqə doğru işğalçı yürüşlərinin növbəti mərhələsi ilə bağlı gürcü mənbəsinin məlumatı epizodik səciyyə daşıyır və ziddiyyətli məqamları ilə diqqət çəkir. Abxaz-Kartli çarlığının Şərqə doğru işğalçılıq yürüşləri Arranın yeni hakimləri olan Şəddadilərin prosesə müdaxilə etməsinə vəsilə olmuşdu. Şəmkir müharibəsindən və ya Şəmkirin uğursuz mühasirəsindən sonra tərəflər sülh bağlamışdılar[99].

1014-cü ildə Şəki/Hereti və Kaxeti hakimləri gürcü çarlığına qarşı baş qaldırmış, bir müddət sonra əsirlikdən qurtulmuş III Kvirikeni isə "albanların/ranların və kaxların hökmdarı" tituluna sahib Birləşmiş dövlətin ilk hökmdarı kimi taxta çıxarmışdılar. Şəki/Heretidə olduğu kimi, Kaxetidə də hakim sülalənin kökü Girdıman xanədanına bağlanırdı. Kaxeti knyazlığında sanarlardan sonra, 827-ci ildən kökü Qardabani/Girdıman xanədanına bağlı yeni xorepiskoplar sülaləsi (Donaurilər sülaləsi) hakimiyyəti ələ keçirmişdi. Kaxetidə 881-ci ildə yeni Arevmaneli sülaləsinin

---

[98] Алиев, Ш.Г. Из истории политического объединения Шекинского царства и Кахетинского княжества // – Москва: Вопросы истории, ежемесячный журнал, – 2016. № 10. – с. 162-168.

[99] Əliyev, Ş.H. Gəncə Şəddadilər Əmirliyinin xarici siyasətində gürcü feodal dövlətləri (X-XI əsrlər) // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" I Beynəlxalq elmi konfrans, – Bakı-Naxçıvan-Gəncə: – 3-8 may, – 2010. – s. 197-205.

hakimiyyətə gəlməsi ilə bağlı müasir gürcü tədqiqatçılarının uydurmalarının heç bir elmi əsası yoxdur. Şəki/Hereti hakimliyi ilə Kaxeti knyazlığının birləşməsi alban və gürcü mədəniyyətlərinin konsolidasiyasını da şərtləndirirdi. III Kvirike Birləşmiş dövlətdə hakimiyyətini möhkəmləndirmək məqsədilə inzibati islahat keçirmiş, gürcü kilsəsinin də dəstəyini almağa çalışmışdı.

**“Böyük Kvirike dövründə Birləşmiş Şəki/Hereti-Kaxeti dövlətinin qonşularla münasibətləri”** adlanan **ikinci paraqrafda** Birləşmiş Şəki/Hereti-Kaxeti dövlətinin ilk hökmdarı Böyük Kvirikenin qonşularla münasibətləri araşdırılmışdır[100]. XI əsrin 20-30-cu illərində Şərq istiqamətində fəallaşmağa başlamış Bizans imperiyası ilə Abxaz-Kartli çarlığı arasında müharibəyə cəlb olunmuş Birləşmiş dövlətin qüvvələri “şakilər və sanarlar” məğlubiyyətə uğramış və təqib olunan gürcü çarının köməyinə yetişmişdilər. Gürcü mənbəsi III Kvirikenin qüdrətini və şöhrətini dilə gətirmək üçün onu “Böyük Kvirike” adlandırır[101]. O, müttəfiqləri ilə birlikdə 1032-ci ildə Gəncə əmiri Fəzluna qarşı uğurlu hərbi yürüş təşkil etmiş, Tianetiyə soxulmuş və Kaxetini viran qoymuş Osetin çarı Urdure ilə vuruşmuş, şiddətli döyüşdə osetinlər məğlub olmuş, Urdure isə döyüşdə öldürülmüşdü. 1037-ci ildə isə Böyük Kvirike qan intiqamının qurbanı olmuş və ovda ikən osetin qulu tərəfindən qətlə yetirilmişdi[102].

Onun dövrünə aid aşkar olunmuş üç tipdə dörd gümüş sikkə ərəb dilində müsəlman dini kanonları üzrə tərtib olunmuşdur. Rəsmi olaraq “dirhəm” adlanan bu sikkələr xristian və müsəlman sivilizasiyalarının qovuşuğunda yerləşən Birləşmiş dövlətin İslam

---

[100] Алиев, Ш.Г. Взаимоотношения Шеки-Кахетинского царства с соседними государствами в период правления Великого Квирике // – Kyyiv: Hileya. Naukovyy visnyk. Zbirnyk naukovykh prats, – 2017. – Vypusk 127 (№ 12), – с. 136-141.

[101] Əliyev, Ş.H. Orta əsr Azərbaycan-Gürcüstan qarşılıqlı əlaqələrdə müttəfiqlik münasibətləri (Şəki dövlətinin materialları əsasında) // – Bakı: AMEA Tarix İnstitutunun Elmi əsərləri, – 2007. – 20-ci cild, – s. 76-85.

[102] Əliyev, Ş.H. Azərbaycan-Gürcüstan müttəfiqlik münasibətləri tarixində Şəki-Kaxeti çarlığı // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” III Beynəlxalq elmi konfrans. – Bakı-Gəncə: – 2-5 may, – 2012. – s. 191-195.

dünyasından mədəni və iqtisadi asılılığının əyani göstəricisidir. Ölkədə pul zərbi və pul emissiyasının təkamülü son nəticədə xristian və müsəlman sikkələrinin orijinal növünün yaranmasına gətirib çıxarmışdır.

**“Birləşmiş Şəki/Hereti-Kaxeti dövləti Tiflis əmirliyi uğrunda mübarizədə”** adlanan **üçüncü paraqrafda** gürcü çarı IV Baqratın tənəzzül dövrünü yaşayan Tiflis əmirliyinə sahiblənmək iddiasına qarşı Birləşmiş dövlətin çıxış etməsi məsələlərinə baxılmışdır. Tiflis uğrunda iki illik uğursuz mübarizədən sonra, rəqiblərinin planlarını pozmağa çalışan gürcü çarı Tiflis əmiri ilə sülh bağlayaraq mühasirədən əl çəkmiş, Birləşmiş Şəki/Hereti-Kaxetinin ikinci hökmdarı Qağikə müxalif olan knyazları da öz tərəfinə çəkməklə onun qüvvələrini parçalamağa müvəffəq olmuşdu. Ordularını Kaxetiyə yeritmiş gürcü çarı 1040-cı ildə məlaikələr dağında baş vermiş meydan savaşında Birləşmiş dövlətin ordusunu məğlub edə bilsə də, ölkəsindəki qarışıqlıqlar səbəbindən yürüşü davam etdirə bilməmişdi[103]. Yürüş zamanı məşhur Bodoci sarayının yandırılması, tərəflər arasında barışmaz düşmənçiliyin əyani göstəricisi olub, IV Baqratın regional rəqabətdə yeni lider kimi özünü təsdiq etdirmək niyyətindən irəli gəlirdi. Məğlubiyyətin əvəzini çıxmağa çalışan Qağik də qoşunlarını gürcü çarına qarşı cəbhədə birləşən qüvvənin köməyinə göndərirdi. 1046-cı ildə Tiflislə bağlı yenidən gürcü çarına qarşı hərəkətə keçməli olan Qağik danışıqlar aparmış, sülhə vararaq onun geri çəkilməsinə nail olmuşdu. Tiflisin tam şəkildə IV Baqratın nəzarətinə keçməsinin qarşısını almaq və solsahilə iddiasını sürdürmək niyyətində olan Qağik növbəti hərbi-diplomatik uğura imza atmışdı. Müvafiq dövrdə Birləşmiş Şəki/Hereti-Kaxeti dövlətinin Şəddadilər və Şirvanşahlarla münasibətləri gərgin olaraq qalırdı.

**“Birləşmiş Şəki/Hereti-Kaxeti dövləti Səlcuq yürüşləri dövründə”** adlanan **dördüncü paraqrafda** səlcuq yürüşləri dövründə regionda cərəyan edən proseslərə diqqət yönəldilmişdir. Birləşmiş Şəki/Hereti-Kaxetinin üçüncü hökmdarı I Axsartan Tiflisə

---

[103] Əliyev, Ş.H. XI əsrin 30-40-cı illərində Tiflis əmirliyi uğrunda mübarizədə Şəki çarlığı // “Gürcüstanda İslamiyyətin dünəni, bugünü, sabahı” mövzusunda beynəlxalq sempozium, – İstanbul: – 06-08 may, – 2016. – s. 27-33.

sahiblənmək kimi son dərəcə həssas məsələdə tədbirli davranmış, rəqiblərinə qarşı mübarizədə alan tayfalarından məharətlə istifadə etmişdi.

Səlcuqların yürüşü zamanı faktiki üçtərəfli hərbi təcavüzlə üzləşmiş I Axsartan xeyli zəifləmiş, bütün istiqamətlərdən ərazi itkiləri ilə üzləşmişdi: Kaxeti yenidən gürcü çarının, Kür-İori arası cənub torpaqları isə Şəddadilərin nəzarətinə keçmişdi. Sultanın başçılığı altında səlcuqların böyük yürüşü qarşısında I Axsartan tabe olmaq məcburiyyətində qalmışdı. İnancından əl çəkərək müsəlman olmuş I Axsartan Birləşmiş Şəki/Hereti-Kaxetinin ilk və sonuncu müsəlman hökmdarı kimi tarixə həkk olunmuşdur. Sultanın böyük etimadı və səxavəti sayəsində Axsartan itirilmiş və ya sahiblərinin tərk etdiyi bütün qalalara yenidən yiyələnməklə zəifləmiş mövqeyini gücləndirmişdi. Sultan Alp-Arslanın Abxaz-Kartli çarlığına qarşı yürüşünə I Axsartan da öz qoşunu ilə qoşulmuşdu[104].

Təsadüf nəticəsində əsir aldığı Gəncə əmirindən məharətlə istifadə edən, I Axsartan, əvvəlcə Şəddadilərin nəzarəti altına keçmiş Xornabuc və Aradeti qalaları daxil olmaqla ölkənin cənub torpaqlarını geri qaytarmış, sonra da əmirin verilməsi qarşılığında Kaxetinin mərkəzi hesab olunan Boçorma və Ucarma şəhər-qalalarını gürcü çarından təhvil almışdı.

Tədqiqatçılar tərəfindən Şirvanın tarixi ilə bağlı təhrif edilmiş iki tarixi fakt, eyni zamanda, Şəki tarixinin də təhrif olunmasına şərait yaratmışdır. Təhriflərdən biri 1066-cı ilin aprelində paytaxt Yəzidiyədə üsyanın yatırılmasında Şirvanşahın guya gürcülərdən (əslində muzdlu döyüşçülərdən) istifadə etməsi, digəri isə 1067-ci ilin aprelində gürcü çarının (əslində üsyan etmiş sərkərdə) Şirvanşahla toqquşması ilə bağlıdır[105].

Sultanın himayəsinə keçdikdən sonra I Axsartan xeyli

---

104 Aliyev, Ş.H. Selcukların Şeki ve Kaheti seferleri orta çağ gürci kaynağı "Matiani Kartlisa"da // Türkiye Cumhuriyeti Cumhurbaşkanlığı Himayelerinde, Erciyes Universitesi Türk Dünyası Araştırmaları Merkezi. I. Uluslararası Selcuklu Sempozyumu. Bildiri Özetleri, – Kayseri: – 27-30 eylül, – 2010. – s. 18-19.

105 Əliyev, Ş.H. XI əsr Azərbaycan-Gürcüstan münasibətlərində Şirvanla bağli iki tarixi təhrif haqqında // – Bakı: AMEA Tarix İnstitutunun Elmi əsərləri, – 2009. – 28-ci cild, – s. 61-67.

gücl…ônmiş, Abxaz-Kartli çarlığının zəifləməsi fonunda, regional liderlik yenidən Birləşmiş dövlətə keçmişdir. Ölkə daxilində üsyanları yatırmağa gücü yetməyən gürcü çarı, 1073-cü ildə Rustavi və Losobanni qalalarını Birləşmiş dövlətə vermək məcburiyyətində qalmış, müxaliflərə və səlcuqlara qarşı mübarizədə Birləşmiş dövlətlə ittifaqa girmişdi. 1075-ci ildə Parsxisi döyüşündə I Axsartan gürcü çarı ilə birlikdə Arranın yeni hakimi Savtəkin Alxası məğlub edə bilmişdi. Səlcuqların növbəti yürüşləri qarşısında gürcü çarı sultana itaət etmiş, üstəlik səlcuq ordusu tərkibində müttəfiqi I Axsartana qarşı yürüşə qatılmaq məcburiyyətində qalmışdı. Vejin qalası altında bir neçə ay davam edən meydan savaşında uğur qazana bilməyən səlcuq qoşunu Kaxeti ilə yetinmək məcburiyyətində qalmışdı. Vejin qalasında güclü müqaviməti təşkil edə bilmiş I Axsartanın sultanın hüzurunda mövqeyi xeyli güclənmişdi. Bundan sonra, sultana itaət nümayiş etdirmiş I Axsartan Birləşmiş Şəki/Hereti-Kaxeti hökmdarı kimi tanınmışdı[106].

**“VII əsrin ortaları–XII əsrin əvvəllərində Şimal-Qərbi Azərbaycanda İslam”** adlanan **beşinci paraqrafda** Şimal-Qərbi Azərbaycanda dini vəziyyət, islamın yayılması ilə bağlı məsələlərə aydınlıq gəririlmişdir. Xilafət dövründə yeni dinin Şimal-Qərbi Azərbaycan torpaqlarında müvəffəqiyyətlə yayıla bilməməsi həm xəzər türkləri timsalında xarici müdaxilədən, həm də xristian əhaliyə münasibətdə ərəblərin yürütdüyü siyasətdən qaynaqlanırdı. Ərəb-xəzər qarşıdurması şəraitində ərəblərin Şimal-Qərbi Azərbaycanda möhkəmlənə bilməməsi və müvafiq torpaqların mütəmadi olaraq xəzər türklərinin nəzarəti altına düşməsi, eyni zamanda xristian əhalinin etiqad məsələsində sərbəst olub cizyə adlanan vergi ödəməsi, kilsələrin himayə olunması, hərbi səfərlərində ərəblərə silahlı kömək göstərən əlahiddə yerli birləşmələrin vergidən azad edilməsi və s. amillər bölgədə islamın sürətlə yayılmasına mane olurdu[107]. Bu səbəbdən Şəki hakimliyi əhalisinin böyük əksəriyyəti

[106] Əliyev, Ş.H. Səlcuq yürüşləri dövründə Şəki çarlığı // – Bakı: Strateji təhlil, SAM, – 2017. – Say 3-4 (21-22), – s. 299-310.

[107] Əliyev, Ş.H. IX-X əsrlər Şimal-Qərbi Azərbaycanda islamın yayılması məsələsinə dair // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr

xristian-monofizit olması ilə diqqəti cəlb edirdi. İslam dini kəndlərə nisbətən şəhərlərdə (tacirlər və sənətkarlar arasında) sürətlə yayılmış, burada məscidlər və müsəlman məhəllələri yaranmışdır. Şəki ölkəsinin hökmdarları xristian dinlərini saxlamaqla yanaşı, islam dinini də qəbul etmişdilər. Onlardan fərqli olaraq, mənbələrdə Birləşmiş Şəki/Hereti-Kaxeti hökmdarları "əsl xristian" kimi təqdim olunur[108]. XI əsrin ortalarında səlcuqların Azərbaycana yürüşləri zamanı islam dininin növbəti dalğası Şimal-Qərbi Azərbaycan tayfalarını da haqlamış, hökmdar I Axsartan başda olmaqla hakim aristokrat zümrələr rəsmi olaraq islam dinini qəbul etmişdilər.

Dissertasiyanın **"Şəki torpaqları IV Davidin işğalçılıq siyasətində**" adlanan **dördüncü fəsli** də üç paraqrafdan ibarətdir. **"IV Davidin Şəki və Şirvan torpaqları ilə bağlı işğalçılıq siyasəti: Birləşmiş Şəki/Hereti-Kaxeti dövlətinin süqutu"** adlanan **birinci paraqrafda** Birləşmiş dövlətin işğala məruz qalıb süquta uğramasının regional proseslərə təsiri izlənilmişdir. Birləşmiş Şəki/Hereti-Kaxeti hökmdarı IV Kvirike 20 illik hakimiyyətinin sonlarında gürcü hakimlərinin yenidən vüsət alan Şərqə doğru yürüşlərinin qarşısını almağa müvəffəq olmuşdu. 1101-ci ildə IV Davidin sərhəd qalası Zedazadeni ələ kecirməsi, onun Birləşmiş dövləti ələ keçirmək istiqamətində ilk cəhdi olub, lokal və ya kəşfiyyat xarakteri daşımışdır. Birləşmiş dövlətin sonuncu hökmdarı II Axsartan isə tezliklə Şəki/Hereti feodal nəsli Baramoğulları tərəfindən yaxalanıb IV Davidə təhvil verilmişdi.

IV Davidin qarşısını kəsməyə çalışan Gəncə atabəyi ordusunu Kaxetiyə yeritmişdi. Lakin Ersuxi savaşında IV David səlcuqlar üzərində ilk qələbəsini qazana bilmişdi. IV David Şəki şəhəri və Kiş qalası daxil olmaqla Şəki/Hereti ölkəsinin bir hissəsində güclü müqavimətlə üzləşmiş, 13 illik mübarizədən sonra – 1117-ci ildə Kiş qalasının hakimləri Qriqoloğulları feodal nəslinin müqavimətini qıraraq Kiş qalasını tuta bilmişdi. Regionda islam-türk/oğuz hərbi siyasi amilinin müvəqqəti olaraq zəifləməsi fonunda gürcü

---

olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" II Beynəlxalq elmi konfransın materialları. I hissə. – Bakı-Gəncə: – 4-7 may, – 2011. – s. 309-315.

[108] Aliyev, SH.H. Islam in North-Western Azerbaijan in the early medieval ages // – Torun: Nowa Polityka Wschodnia, – 2018. – nr 2 (17), – p. 45-56.

hakimlərinin Şərqə doğru işğalçı yürüşləri nəticəsində Birləşmiş Şəki/Hereti-Kaxeti dövləti süqut etmiş, ərazisi gürcü çarlığının tərkibinə, əhalisindən təşkil olunmuş qoşun dəstələri isə Gürcüstan ordularının tərkibinə daxil edilmişdi. İşğaldan sonra, IV David öz titullarına "ranların/albanların və kaxların hökmdarı" titulunu da əlavə etmişdi. Müsəlman qaynaqlarında isə o, "Abxaz, Şəki, Alan çarlar çarı" kimi qeyd olunurdu[109].

Şəki və Şirvan torpaqlarının işğalı siyasətini həyata keçirməyə çalışan IV David səlcuqlar ilə qarşılaşmalı olmuşdu. 45-50 minlik, yüksək döyüş qabiliyyətli qıpçaq ordusu ilə güclənmiş IV David, qonşu dövlətləri özünə tabe etmək istiqamətində fəal hərbi əməliyyatlara başlamışdı. Dərbənd istisna olmaqla, Şirvanı nəzarətə alan gürcü çarı mühüm qala və şəhərlərdə "herlər və kaxlardan" ibarət qoşunları yerləşdirmişdi. Şirvan xanədanını həmişəlik gürcü çarlığına tabe etmək niyyətində olan IV Davidin vəfatı ilə, onun Şirvanla bağlı işğal planları yarımçıq qalmışdı[110].

**"Şəki/Hereti torpaqlarında gürcüləşdirmə siyasəti"** adlanan **ikinci paraqrafda** gürcü çarlığı tərkibində sərhədyanı Şəki/Hereti eristavlığının tarixi tədqiq olunmuşdur. Birləşmiş dövlətin süqut edərək gürcü çarlığına ilhaq edilməsindən sonra, yenidən Kaxetini ayırmaqla ayrıca sərhədyanı Şəki/Hereti eristavlığı (hərbi-inzibati dairə) yaradılmışdı[111]. Erməni mənbələrindəki "Şəki eristavlığı" ilə gürcü mənbələrindəki "Hereti eristavlığını" bir-birindən ayırmaq cəhdlərinin heç bir elmi əsası olmadığı təsdiqlənmişdir. Hərbi-inzibati dairənin idarəçiliyində geniş səlahiyyətlərə malik

---

109 Əliyev, Ş.H. Gürcü Çarı Qurucu Davidin İşğalları Dövründə Şəki Torpaqları // – Osmaniye: Akademik Tarih ve Düşünce Dergisi. Academic Journal of History and Idea. Академическая История и Мысль, – 2018. – cilt 5, – sayı 18, – s. 442-455.

110 Aliyev, Ş.H. Azerbaycan-Gürcistan ilişkilerinde Şirvanşahlar devleti (XII-XIII. Y.Y. başları) // Türkiye Cumhuriyeti Ordu Üniversitesi, Sosyal Bilimler Enstitüsü. Güney Kafkasya dil-tarih-kültür ilişkileri uluslararası bilgi şöleni bildirileri, – Ordu: – 27-30 eylül, 2010. – 2011. – s. 43-51; Yenə onun, XII-XIII əsrin əvvəllərində Şirvanşahlar dövlətinin xarici siyasətində Abxaz-Kartli çarlığı // – Bakı: Bakı Slavyan Universitetinin Elmi əsərləri: İctimai-siyasi elmlər seriyası, – 2010. № 2, – s. 110-117.

111 Əliyev, Ş.H. Şəki hakimliyi (XII-XIII əsrlər) // – Bakı: AMEA Tarix İnstitutunun Elmi əsərləri, – 2008. – 26-cı cild, – s. 47-60.

Şəki/Hereti eristavları haqqında tutarlı bir mənzərə yaratmaq mümkün olmuşdur. İlk eristavların adları bəlli olmasa da, Kolonkeloğullarının ən azı 1161-ci ildən 1184-cü ilədək, bundan sonra Kiş qalası hakimləri Qriqoloğullarının Şəki/Hereti eristavı vəzifəsini tutduqları dəqiq müəyyən edilmişdir[112].

Erməni müəllifi Vardana görə, gürcü çarı ona xəyanət etmiş Ani şəhərinin hakimini Şəki eristavının köməyi ilə cəzalandırır, başqalarını "bəzi didebullar" kimi göstərən gürcü mənbələri isə, Şəki/Hereti eristavlarının adlarını çəkməklə yanaşı, onların müsbət keyfiyyətlərini də sadalamağı lazım bilir, ardınca da onları çara düşmənçilik və paxıllıq etməkdə, quyu qazmaqda günahlandırır.

Gürcü çarlığında monofizit meyilli qüvvələrin fəallaşması Şəki eristavlığı əhalisinin də 1178-ci ildə üsyana qalxmasına vəsilə olmuşdu[113]. Şəki/Hereti eristavlığı əhalisi yerli hakimlərin başçılığı altında hərəkət edir, kömək məqsədilə qonşu dağlı tayfalarına müraciət etmişdilər. Üsyançıların böyük rəşadətlə vuruşmalarına baxmayaraq, gürcü çarının say-seçmə qoşunları ilə həlledici döyüşdə məğlub oldular. Bununla belə, əhalinin yadelli ağalığına qarşı mübarizəsi davam edirdi[114]. Kiş qalası hakimləri nəsli Qriqoloğulları Şəki/Hereti eristavlığında daha 6 il davam edən həyəcanlara rəhbərlik etmiş və sonda eristavlıq vəzifəsini zorla ələ keçirmişdilər. Gürcü sarayı isə onlara qarşı inadla mübarizə aparan yerli feodal nəslin eristavlıqda çevriliş etməsi faktı ilə barışmaq məcburiyyətində qalmışdır. Şəki/Hereti eristavları gürcü sarayında təmtəraqlı mərasimlərin keçirilməsində, hərbi səfərlərin planlaşdırılmasında fəal iştirak edir, xüsusilə də Darbazi adlanan dövlət şurasında xüsusi

---

[112] Aliyev, S. Shaki Eristavate // – Baku: Azerbaijan & Azerbaijanis, – 2007. – p. 155-162.

[113] Əliyev, Ş.H. 1178-ci il Şəki üsyanı // – Bakı: Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, – 2001. № 2, – s. 83-86.

[114] Əliyev, Ş.H. Azərbaycan-Dağıstan xalqlarının yadellilərə qarşı birgə mübarizəsi tarixindən: 1178-ci il Şəki üsyanı // "Azərbaycan-Dağıstan: qardaşlıq münasibətləri tarixi, müasirlik, perspektivlər" mövzusunda Seyid Qurbanovun xatirəsinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları (29-30 aprel 2010). – Bakı: AMEA Tarix İnstitutunun Elmi əsərləri. Xüsusi buraxılış, – 2010. – 33-cü cild, – s. 44-54.

imtiyazlarla təmsil olunmaq hüququ əldə etmişdilər[115].

**"Şəki/Hereti torpaqları monqol yürüşləri dövründə"** adlanan **üçüncü paraqrafda** XIII əsrin I yarısında Şəki bölgəsində cərəyan edən proseslər araşdırılmışdır. Monqolların kəşfiyyat xarakterli birinci yürüşü Şəki torpaqlarından yan keçmişdir. Ardından qıpçaqların Şirvana yürüşü zamanı Qəbələ və Şəki torpaqları müəyyən qədər zərər çəkmişdir. Monqollardan qaçan xarəzmlilər isə Kambisena və İori sahillərini ələ keçirərək beş il ərzində qarət etmişdilər. Cəlaləddinin yürüşləri nəticəsində Kutaisiyə qaçmış çariçə Rusudan Şərqi Gürcüstan üzərində hakimiyyətini tamamilə itirmişdi. Cəlaləddinə məxsus qüvvələr Şəki və Qəbələni ələ keçirsə də, yerli qüvvələr tezliklə hər iki şəhəri mühasirə edərək xarəzmliləri qaçmağa məcbur etmişdi. Bunun ardınca Şəki/Hereti eristavlığı qüvvələri gürcü ordusu tərkibində Battax gölu yaxınlığında Cəlaləddinin ordusuna qarşı döyüşdə iştirak etmiş və ağır məğlubiyyətə uğramışdılar[116]. Monqolların ikinci yürüşü zamanı Şəki/Hereti eristavı Şota Kupari fərdi qaydada monqollarla sazişə girərək onlara itaət etmiş, gürcü çarlığı adından danışıqlar aparmaq məqsədilə seçilmiş dörd elçidən biri olaraq monqolların yanına göndərilmiş və missiyasını uğurla həyata keçirmişdi. Ali Monqol xaqanlığı tərkibində bütün vassallardan məhrum edilmiş gürcü çarlığı tənəzzülə uğramış, ölkə ərazisində 8 tümən yaradılmışdı. Şəki/Hereti və Kaxeti əraziləri bütövlükdə vahid tümən tərkibində saxlanılmışdı.

Dissertasiyanın "**Nəticə"** hissəsində tədqiqatla bağlı gəlinmiş nəticə və qənaətlər ümumiləşdirilir, müəyyən təkliflər verilir. Azərbaycanın beynəlxalq münasibətlər tarixində IX əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətlərində Şəki hakimliyinin yeri və rolu, müvafiq dövrdə Azərbaycan-Gürcüstan münasibətlərinin xarakterik xüsusiyyətləri, Xilafətdən

---

[115] Əliyev, Ş.H. XII əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətlərində Şəki eristavlığı // – Bakı: Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, 3. – 2018. – s. 5-10.

[116] Aliyev, Ş.H. Moğollar Devrinde Azerbaycan'ın Şeki Bölgesi // – Ankara: Yeni Türkiye Stratejik Araştırma Merkezi. YENİ TÜRKİYE, 72, – 2015. – Kafkaslar özel sayısı – II, – s. 377-381.

sonra Azərbaycanın (Albaniya) şimal-qərb bölgəsində yaranmış Şəki hakimliyinin tarixi, bu bölgənin qədim və orta əsrlər dövrü siyasi tarixi və tarixi coğrafiyası mötəbər tarixi məxəzlər əsasında hərtərəfli, kompleks şəkildə aydınlaşdırılmış, elmi əsaslarla obyektiv gerçəklik təmin olunmuşdur:

– E.ə. III–eramızın II əsrlərində Hereti/Şəki vilayətindən qərbdə və şimal-qərbdə İberiya sərhədinə doğru etnik albanlar, sodlar, didurlar, lupenlər və b. tayfalar yaşamışlar. Antik dövr müəlliflərinin Albaniya haqqında verdiyi məlumatların əksəriyyətinin Alban tayfa ittifaqına daxil olmuş Şimal-Qərbi Albaniya tayfaları ilə bağlı olduğu müəyyən edilmişdir.

– Gürcü mənbələri əsasında Şəki/Hereti ölkəsinin hüdudları dəqiqləşdirilmişdir: qərbdə Debed çayının Xrami ilə birlikdə Kürə qovuşduğu mənsəbindən Xunanın qarşı tərəfində Samebis çayının İoriyə qovuşduğu mənsəbinədək uzanan sərhəd xətti, Samebis çayı boyunca Şua-mta dağlarınadək, dağın əks tərəfində Turdos-xevi çayı boyunca Qulqulayadək, Ştoris-xevi çayı; şərqdə İori çayının mənsəbi, Alazan çayı, Əyri çay; şimalda Dağıstan, Didoeti, Tuşeti boyunca Qafqaz dağları; cənubda Kür çayı.

– Filanşahlıq, "müəmmalı Filan" ilə bağlı irəli sürülmüş yeni konsepsiya Filan ölkəsinin Şimali Qafqazda deyil, Albaniyanın tərkib hissəsi olmuş Cənubi Dağıstan və Şimal-Qərbi Azərbaycanda, Qafqaz dağlarının cənub ətəklərində, Qafqaz səddinin "Bab-Filanşah" adlanan keçidində lokalizasiyasına əsaslanır. Ərəb-xəzər müharibələrinin əsas hədəfi Albaniya ərazisi olmuş, ərəblər xəzərlərə qarşı yürüşlərində Şəki və Filan ərazisindəki keçidlərdən də istifadə edirdilər.

– 886-cı ildə Albaniyanın bir hissəsində dövləti bərpa etməyə müvəffəq olmuş mömin knyaz Qriqor Hammam regionda cərəyan edən siyasi proseslərin fəal iştirakçısına çevrilmiş, islam və xristianlığın qovuşduğu ölkənin hökmdarı kimi Sacilərlə yaxın münasibətlər qurmuşdur. 886-919-cu illər "tənəzzül etmiş Albaniya dövlətinin bərpa" olunması uğrunda yerli sülalənin apardığı mübarizə dövrü kimi qəbul edilməlidir.

– Sağsahil Albaniyada yerləşən Uti əyalətinə sahib olmaq məsələsində Alban knyazlarının erməni və gürcü knyazları ilə

maraqları toqquşurdu. 918-ci ildə Kaxeti xorepiskopu və Abxaz çarının birlikdə Şəki/Hereti hakimliyinə qarşı müharibəyə başlaması ilə gürcü hakimlərinin Şərqə doğru yürüşləri başlanmışdı.

– İşxanikin dövründə monofizitlərlə diofizitlər arasında doqmatik mahiyyət daşıyan ixtilaf və fikir ayrılıqları böyük qarışıqlıqlara səbəb olmuşdur. İslam və xristianlığın qovuşduğu, birgəyaşayışın təmin olunduğu Şəki ölkəsinin hökmdarları xristian dinlərini saxlamaqla yanaşı, islam dinini də qəbul etmişdilər.

– Şəki/Hereti hakimliyi ilə Kaxeti knyazlığı arasında müttəfiqlik münasibətlərinin yaranması, onların vahid dövlətdə birləşməsi Abxaz-Kartli çarlığının təcavüzkar siyasətinə qarşı mübarizədə səylərin birləşdirilməsindən irəli gəlirdi. Şərqdəki xristian dövlətləri tarixində ilk dəfə Böyük Kvirike titullarını təqdim etmək üçün ərəb qrafikasından istifadə etmişdi.

– Birləşmiş Şəki/Hereti-Kaxetinin ikinci hökmdarı, qadın xətti üzrə qanuni varis kimi hakimiyyətə gətirilmiş Qağikin dövründə Abxaz-Kartli çarlığı ilə münasibətlər yenidən kəskinləşmişdir. Birləşmiş Şəki/Hereti-Kaxetinin üçüncü hökmdarı I Axsartan səlcuqlara və Abxaz-Kartli çarlığına münasibətdə ehtiyatlı mövqe tutmuş, düzgün siyasi qərarlar qəbul etməklə ölkəsinin varlığını sürdürməsinə nail olmuşdu. 1072-1082-ci illərdə səlcuq ağalığından imtina etmiş I Axsartan səlcuqlara qarşı aparılan mübarizənin önündə yer almışdır.

– Şəki/Hereti feodal nəslinin Birləşmiş dövlətin varlığına son qoyacaq qəsdə qərar verməsi, bir daha onların ölkənin siyasi həyatında oynadıqları mühüm və aparıcı rolunu üzə çıxarırdı. Şəki/Hereti eristavlığı dövlətlərarası münasibətlərdə müxtəlif dilli mənbələrin diqqətini özünə cəlb edəcək qədər fəallığı ilə seçilirdi.

– Keçmiş Şəki hakimliyi əhalisi, xüsusilə də yerli hakimlər şəraitdən asılı olaraq dövlətçiliyin bərpası uğrunda açıq və ya gizlin formada mübarizə aparırdılar. Monqolların ikinci yürüşü zamanı əhalisi dağlara və meşələrə qaçmış Şəki bölgəsi də istila olunmuş və ciddi dağıntılara məruz qalmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Əliyev, Ş.H. Şəki-Gürcüstan münasibətləri (IX əsrin ikinci yarısından–XII əsrin əvvəllərinədək) // – Bakı: Bakı Slavyan Universitetinin elmi əsərləri: İctimai-siyasi elmlər seriyası, – 2005. №1, – s. 117-126.
2. Əliyev, Ş.H. Şəki çarlığının süqutu haqqında // Bakı Slavyan Universitetinin əməkdaşlarının illik elmi işlərinin yekununa dair nəşr olunmuş konfrans məruzələrinin tezisləri, – Bakı: – 2006. – s. 234.
3. Əliyev, Ş.H. Orta əsr Azərbaycan-Gürcüstan qarşılıqlı əlaqələrdə müttəfiqlik münasibətləri (Şəki dövlətinin materialları əsasında) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi əsərləri, – 2007. – 20-ci cild, – s. 76-85.
4. Aliyev, S. Shaki Eristavate // – Baku: Azerbaijan & Azerbaijanis, – 2007. – p. 155-162.
5. Əliyev, Ş.H. Şəki hakimliyi və Kaxeti xorepiskopluğunun siyasi birləşməsi tarixindən // Bakı Slavyan Universitetinin əməkdaşlarının illik elmi işlərinin yekununa dair nəşr olunmuş konfrans məruzələrinin tezisləri, – Bakı: – 2007. – s. 247-248.
6. Hacıəli, Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar / Ş.Hacıəli. – Bakı: Təhsil, – 2007. – 280 s.
7. Əliyev, Ş.H. IX əsrin ikinci yarısı–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətləri. “Azərbaycan diplomatiyası tarixi” kursu üzrə metodik vəsait / Ş.H.Əliyev – Bakı: Kitab aləmi, – 2007. – 48 s.
8. Əliyev, Ş.H. Şəki hakimliyi (XII-XIII əsrlər) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi əsərləri, – 2008. – 26-cı cild, – s. 47-60.
9. Əliyev, Ş.H. XI əsr Azərbaycan-Gürcüstan münasibətlərində Şirvanla bağli iki tarixi təhrif haqqında // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi əsərləri, – 2009. – 28-ci cild, – s. 61-67.

10. Əliyev, Ş.H. Yaqub Mahmudov – Azərbaycan tarixşünaslığında “İtirilmiş torpaqlar” istiqamətinin müəllifidir // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi əsərləri, – 2009. – 30-cu cild. – s. 98-102.
11. Aliyev, Ş.H. Selcukların Şeki ve Kaheti seferleri orta çağ gürci kaynağı “Matiani Kartlisa”da // Türkiye Cumhuriyeti Cumhurbaşkanlığı Himayelerinde, Erciyes Universitesi Türk Dünyası Araştırmaları Merkezi. I. Uluslararası Selcuklu Sempozyumu. Bildiri Özetleri, – Kayseri: – 27-30 eylül, – 2010. – s. 18-19.
12. Əliyev, Ş.H. XII-XIII əsrin əvvəllərində Şirvanşahlar dövlətinin xarici siyasətində Abxaz-Kartli çarlığı // – Bakı: Bakı Slavyan Universitetinin elmi əsərləri: İctimai-siyasi elmlər seriyası, – 2010. № 2, – s. 110-117.
13. Əliyev, Ş.H. Gəncə Şəddadilər Əmirliyinin xarici siyasətində gürcü feodal dövlətləri (X-XI əsrlər) // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” I Beynəlxalq elmi konfrans, – Bakı-Naxçıvan-Gəncə: – 3-8 may, – 2010. – s. 197-205.
14. Əliyev, Ş.H. Azərbaycan-Dağıstan xalqlarının yadellilərə qarşı birgə mübarizəsi tarixindən: 1178-ci il Şəki üsyanı // “Azərbaycan-Dağıstan: qardaşlıq münasibətləri tarixi, müasirlik, perspektivlər” mövzusunda Seyid Qurbanovun xatirəsinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları (29-30 aprel, 2010). – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi əsərləri, Xüsusi buraxılış – 2010. – 33-cü cild, – s. 44-54.
15. Aliyev, Ş.H. Azerbaycan-Gürcistan ilişkilerinde Şirvanşahlar devleti (XII-XIII. Y.Y. başları) // Türkiye Cumhuriyeti Ordu Üniversitesi, Sosyal Bilimler Enstitüsü. Güney Kafkasya dil-tarih-kültür ilişkileri uluslararası bilgi şöleni bildirileri, – Ordu: – 27-30 eylül, – 2011. – s. 43-51.
16. Aliyev, SH.H. From the history of political unity of Sheki tsar Kehetian principality // Saint Andrew the First-Called Georgian University of the Patriarchate of Georgia. The

first International Conference of the Kartvelology Centre: "Actual problems of Kartvelology". Programme, – Tbilisi: – 25-26 november, – 2011. – p. 18.
17. Əliyev, Ş.H. IX-X əsrlər Şimal-Qərbi Azərbaycanda islamın yayılması məsələsinə dair // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" II Beynəlxalq elmi konfransın materialları. I hissə. – Bakı-Gəncə: – 4-7 may, – 2011. – s. 309-315.
18. Əliyev, Ş.H. Azərbaycan-Gürcüstan müttəfiqlik münasibətləri tarixində Şəki-Kaxeti çarlığı // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" III Beynəlxalq elmi konfrans. – Bakı-Gəncə: – 2-5 may, – 2012. – s. 191-195.
19. Əliyev, Ş.H. Azərbaycan Albanşünaslığında "albanların hökmdarı Qriqor Hammam" məsələsinə dair // Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" IV Beynəlxalq elmi konfransın materialları. – Bakı: – 1-4 may, – 2013. – s. 190-193.
20. Əliyev, Ş.H. "Çovqan" oyunu // "Тҥрк элдеринин салттуу спорттук оюндары" / "Türk halklarının geleneksel spor oyunları" Uluslararası Sempozyum Bildirileri. – Bişkek: Qırğızıstan-Türkiyə "Manas" Universiteti, – 20-22 kasım 2014. – 2015. – s. 34-37.
21. Aliyev, Ş.H. Moğollar Devrinde Azerbaycan'ın Şeki Bölgesi // – Ankara: Yeni Türkiye Stratejik Araştırma Merkezi. YENİ TÜRKİYE, 72, – 2015. – Kafkaslar özel sayısı – II, – s. 377-381.
22. Алиев, Ш.Г. Из истории политического объединения Шекинского царства и Кахетинского княжества // – Москва: Вопросы истории, ежемесячный журнал, – 2016. № 10. – с. 162-168.
23. Əliyev, Ş.H. XI əsrin 30-40-cı illərində Tiflis əmirliyi uğrunda mübarizədə Şəki çarlığı // Türkiyə Respublikası Fatih Sultan Mehmet Vakıf Universiteti və Gürcüstan Dostluq Dərnəyinin

İstanbul şəhərində təşkil etdiyi "Gürcüstanda İslamiyyətin dünəni, bugünü, sabahı" mövzusunda beynəlxalq sempozium, – İstanbul: – 06-08 may, – 2016. – s. 27-33.
24. Əliyev, Ş.H. Sağsahil Alban vilayətləri uğrunda mübarizədə Şəki çarlığı // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi əsərləri, – 2016. – 61-ci cild, – s. 275-289.
25. Əliyev, Ş.H. Səlcuq yürüşləri dövründə Şəki çarlığı // – Bakı: Strateji təhlil, SAM, – 2017. – Say 3-4 (21-22), – s. 299-310.
26. Алиев, Ш.Г. Благочестивый князь Григор Хаммам в борьбе за возобновление царство Албанское // – Москва: Вестник Московского государственного лингвистического университета. Общественные науки, – 2017. – Выпуск 3 (787), – s. 105-114.
27. Алиев, Ш.Г. Взаимоотношения Шеки-Кахетинского царства с соседними государствами в период правления Великого Квирике // – Kyyiv: Hileya. Naukovyy visnyk. Zbirnyk naukovykh prats, – 2017. – Vypusk 127 (№ 12), – с. 136-141.
28. Əliyev, Ş.H. Bir daha Filanşahlığın tarixinə dair // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası. Xəbərlər. İctimai elmlər seriyası, – 2018. № 3, – s. 14-22.
29. Əliyev, Ş.H. Gürcü Çarı Qurucu Davidin İşğalları Dövründə Şəki Torpaqları // – Osmaniye: Akademik Tarih ve Düşünce Dergisi. Academic Journal of History and Idea. Академическая История и Мысль, – 2018. – cilt 5, – sayı 18, – s. 442-455.
30. Əliyev, Ş.H. XII əsrin sonları–XIII əsrin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətlərində Şəki eristavlığı // – Bakı: Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, 3. – 2018. – s. 5-10.
31. Aliyev, SH.H. Islam in North-Western Azerbaijan in the early medieval ages // – Torun: Nowa Polityka Wschodnia, – 2018. – nr. 2 (17), – p. 45-56.
32. Aliyev, SH. H. The "Mamluke period" in the history of the Atabey state in the context of Azerbaijani-Georgian

relations // – Torun: Understanding Asia: political, economic and socio-cultural dimensions, – 2019. – p. 44-61 (211 s.).
33. Əliyev, Ş.H. Böyük Atabəy Şəmsəddin Eldənizin dövründə Azərbaycan-Gürcüstan münasibətləri // – Naxçıvan: AMEA-nın Naxçıvan bölməsinin Elmi əsərləri: İctimai və humanitar elmlər seriyası, – 2020. № 3, – s. 47-54.
34. Əliyev Ş.H. Gürcü feodallarının Şərqə doğru ilk yürüşü və Şəki hakimliyi // – Bakı: ADPU, Tarix, insan və cəmiyyət. Elmi-nəzəri və elmi-metodik jurnal, – 2020. № 3 (30), – s. 75-84.
35. Şəki: ən qədim zamanlardan bugünümüzədək. – Bakı, “Turxan” NPB, – 2020. (708 s.), – s. 96-120.

Dissertasiyanın müdafiəsi 12 sentyabr 2024-cü il tarixində saat 10⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1141, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 01 avqust 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.08.2024

Kağızın formatı: A5

Həcm: 94501

Tiraj: 100